AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

31 MART 2018-ci il ŞƏNBƏ № 70 (6103) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

# Prezident İlham Əliyev ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu missiyasının rəhbərini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 30-da ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu missiyasının rəhbəri xanım Korin Yonkeri qəbul edib.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Azərbaycanda qarşıdan gələn prezident seçkilərinin keçirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Prezident İlham Əliyev seçkilərin demokratik, seçki qanunvericiliyinə uyğun şəkildə keçiriləcəyinə, ədalətli və şəffaf olacağına və Azərbaycan xalqının iradəsini əks etdirəcəyinə əminliyini ifadə etdi.

**AZƏRTAC**

## Tovuz şəhərinin su təchizatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Tovuz şəhərinin su təchizatının yaxşılaşdırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.84-cü bəndində göstərilmiş məbləğin 14,0 (on dörd) milyon manatı "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 30 mart 2018-ci il.**

## Kürdəmir rayonunda xalça istehsalı emalatxanasının tikintisi, təchizatı və infrastrukturunun yaradılması ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Kürdəmir rayonunda xalça istehsalı emalatxanasının tikintisi, avadanlıq və dəzgahlarla təchizatı və infrastrukturunun yaradılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.49.5-ci yarımbəndində göstərilmiş məbləğin 2,0 (iki) milyon manatı "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 30 mart 2018-ci il.**

# Azərbaycanlıların soyqırımının 100 illiyi ilə əlaqədar Konstitusiya Məhkəməsində anım mərasimi keçirilib

**31 Mart - Azərbaycanlıların Soyqırımı Günü xalqımızın və dövlətçiliyimizin tarixində baş vermiş faciəli hadisələrin milli yaddaşa əbədi həkk olunmasının təzahürüdür. Tarix sübut edir ki, XIX əsrdən başlayaraq ermənilər Azərbaycan ərazisində işğalçılıq niyyətlərini həyata keçirmək və tarixi torpaqlarımız hesabına "böyük Ermənistan" xülyasını reallaşdırmaq üçün ardıcıl olaraq hərbi və ideoloji vasitələrdən yararlanmış, xalqımıza qarşı dəhşətli soyqırımı cinayətləri törətmişlər. Azərbaycanlıların kütləvi surətdə qırğını, repressiyalara məruz qalması, doğma yurdlarından deportasiya edilərək didərgin salınması XX əsr tarixinin ən faciəli və dəhşətli səhifələrindəndir.**

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu fikirlər martın 30-da Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsində 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi ilə əlaqədar keçirilən anım mərasimində səslənib. Əvvəlcə faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev xalqımızın tarixində qanla yazılmış soyqırımından, eləcə də ermənilərin xalqımıza qarşı törətdikləri digər dəhşətli qətliamlardan danışıb.

Diqqətə çatdırılıb ki, daşnak-bolşevik silahlı dəstələrinin 100 il əvvəl azərbaycanlılara qarşı törətdikləri bəşəri cinayətlər barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə daha dolğun çatdırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2018-ci il yanvarın 18-də "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" Sərəncam imzalayıb.

Sədr Fərhad Abdullayev qeyd edib ki, 1918-ci il martın 30-dan aprelin 3-dək Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə Bakı Soveti və daşnak erməni silahlı dəstələri azərbaycanlılara qarşı soyqırımı törədiblər. Soyqırımı nəticəsində on minlərlə azərbaycanlı qətlə yetirilib, çoxlu sayda insan itkin düşüb. Martın 31-i 1919-cu və 1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd olunub.

Ümummilli lider Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanında həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verilib və 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü elan edilib. Bu Fərman, həmçinin Azərbaycan xalqına qarşı ermənilər tərəfindən əsrlərboyu törədilən soyqırımlarına verilən ilk hüquqi-siyasi qiymət idi.

Bildirilib ki, 20 faiz torpaqlarımızı işğal etmiş təcavüzkar Ermənistan dövlətinin rəhbərliyi bu gün Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü diplomatiya nəticəsində çıxılmaz vəziyyətə düşüb. Dövlətimizin başçısı Ermənistanın beynəlxalq səviyyədə ifşası, xalqımızın haqq səsinin dünya ictimaiyyətinə çatdırılması üçün bütün mötəbər tribunalardan istifadə edir. Keçirdiyi görüşlərdə, xarici ölkələrə səfərlərində, çıxışlarında Azərbaycan xalqına qarşı soyqırımı həyata keçirən erməni millətçilərinin iç üzünü açıb göstərir, dünya ictimaiyyətini Ermənistan rəhbərliyinin riyakarlığına və təcavüzkar siyasətinə son qoymağa çağırır. Dünya siyasi arenasında mühüm rol oynayan dövlətlərlə, təşkilatlarla ardıcıl və müntəzəm işin aparılması onilliklərboyu formalaşmış stereotiplərin və yanlış siyasi yanaşmaların tədricən dəyişməsi ilə müşayiət olunmaqdadır.

Tədbirdə vurğulanıb ki, Azərbaycan xalqı və dövləti soyqırımı qurbanlarının xatirəsini daim əziz tutur, erməni faşizminin iç üzünü bütün dünyaya açıb göstərir, tarixdə baş verən bu qanlı hadisələrə beynəlxalq ictimaiyyəti obyektiv münasibət bildirməyə çağırır.

Konstitusiya Məhkəməsinin kollektivi 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi ilə əlaqədar Azərbaycan Respublikası Hərbi Prokurorluğunun nəzdində fəaliyyət göstərən Memorial Soyqırımı Muzeyini ziyarət edib, burada Xocalı faciəsinə dair cinayət işinin materialları, tarixi sənədlər, maddi sübutlar, şahidlərin xatirələri və kitablarla tanış olub. Konstitusiya Məhkəməsinin əməkdaşları, həmçinin azərbaycanlılara qarşı törədilmiş soyqırımlarından bəhs edən filmə baxıblar.

**AZƏRTAC**

# 31 Mart soyqırımı qan yaddaşımızda

**100 il əvvəl məhz həmin gün bolşevik-erməni birləşmələri təkcə Bakıda minlərlə Azərbaycan türkünü böyüklü-kiçikli, kişili-qadınlı ən vəhşi üsullarla, qəddarcasına qətlə yetirmişlər. Azərbaycan Prezidenti İlham Əliyevin bu genosid siyasəti ilə əlaqədar "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" imzaladığı Sərəncamında deyilir: "Erməni millətçiləri tarixin müxtəlif mərhələlərində mifik "böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədilə soydaşlarımıza qarşı etnik təmizləmə, deportasiya və soyqırımları həyata keçirmişlər. Azərbaycan xalqının başına gətirilən ən dəhşətli faciələrdən biri də 100 il bundan əvvəl - 1918-ci ilin mart-aprel aylarında Bakı Sovetinin mandatı altında fəaliyyət göstərən daşnak-bolşevik silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla törədilmiş kütləvi qırğınlardır. Həmin günlərdə Bakı şəhərində, habelə Bakı quberniyasına daxil olan digər şəhər və qəzalarda on minlərlə dinc sakin məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilmiş, yaşayış məntəqələri dağıdılmış, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerlə-yeksan edilmişdir. Sonrakı dövrlərdə daha da azğınlaşan erməni millətçiləri qeyri-insani əməllərini davam etdirmiş, Qarabağ, Zəngəzur, Naxçıvan, Şirvan, İrəvan və digər bölgələrdə kütləvi qətllər, talanlar və etnik təmizləmələr həyata keçirmişlər".**

Erməni terrorçuları bundan əvvəl də bu cür soyqırımlar törətmişdilər, lakin bu - 1918-ci il martın 31-də baş verən qətliam öz miqyasına və məqsədinə görə onların hamısından fərqlənirdi. Bu soyqırımın mahiyyətinə baxdıqda geosiyasi və demoqrafik məqsədlər tam aydınlığı ilə ortaya çıxır. Birinci Dünya müharibəsi nəticəsində dünyada yeni düzən başlayırdı. İmperiyalar parçalanır, yeni dövlətlər yaranır, dünyanın böyük qüvvələrin nüfuz dairələrinə bölünməsi uğrunda amansız mübarizə gedirdi. Ermənilər hər bir dünya düzənində olduğu kimi bu dəfə də torpaq əldə etmək və dövlət qurmaq iddiasında idilər. Avropanın imperiya qüvvələri ANTANTA və Üçlər İttifaqı kimi hərbi bloka bölünmüşdülər. Əvvəlcə Fevral burjua inqilabını yaşamış Rusiyada 1917-ci ilin sonlarına yaxın - oktyabrda sosialist inqilabı baş verdi. Qeyd etmək lazımdır ki, burjua Kerenski hökumətinə nisbətən bolşevik iqtidarı daha qəddar, dünya imperiyası məqsədli idilər. İnqilabın rəhbəri V.İ.Leninin "Dünya Birləşmiş Ştatları", "Avropa Birləşmiş Ştatları" devizləri buna ən aşkar misallardır. İnqilab rəhbəri də digər imperiya qüvvələri kimi xalqların öz müqəddəratını təyin etmə siyasi məqsədli hüquqi avantüradan məharətlə istifadə edirdi. Sosialist inqilabı baş verəndən və kommunistlər hakimiyyətə keçəndən sonra bolşevik rəhbəri nəinki keçmiş Rusiya ərazisini saxlamaq, əksinə daha geniş ərazilərə sahib olmaq niyyətində idi. Bakıda hakimiyyəti ələ keçirmiş bolşevik qiyafəli daşnak Stepan Şaumyan əvvəlcə erməni siyasi maraqlarını, daha sonra isə Moskvanın mənafelərini ifadə edirdi. Belə ki, Lenin demişdi ki, bizə Bakı və Xəzərətrafı rayonlar lazımdır. Stepan Şaumyana bu siyasi xətt geniş imkanlar açırdı. Vladimir İliç onu Bakı Kommunasının və "Türkiyə Ermənistanının" rəhbəri təyin etmişdi. Biz bir qədər tarixin əvvəllərinə diqqət yetirsək görərik ki, Bakıda 1905-ci ildə, Türkiyədə isə Leninin "Türkiyə Ermənistanı" dediyi ərazilərdə ermənilər soyqırımı törətmiş, yüz minlərlə müsəlman-türkü qətlə yetirərək demoqrafik çoxluğu əldə etməyə çalışmışlar. Beləliklə, Şaumyan qaragüruhu "xalq yoxdursa problem də yoxdur" prinsipi ilə Azərbaycanda soyqırımına şüurlu şəkildə baş vurmuşdur. Onun əsas məqsədi Bakı və ümumən Azərbaycanda demoqrafik çoxluq problemini ortadan qaldırmaqla, yerli müsəlman türklərdən ola biləcək təhlükəni önləmək, daha sonra isə Kommunist Rusiyasının siyasi-hərbi dəstəyi ilə Türkiyədə Ermənistanı yaratmaq və mifik "Böyük Ermənistan"ı reallaşdırmaq idi. 1918-ci il 31 Mart soyqırımı ermənilərin ərazilərimizə köçürülməsindən sonra onların planlaşdırdıqları etnik təmizləmənin ən amansız şəkildə aparılması idi. Əgər Osmanlı imperiyasının dağılmasından sonra Mustafa Kamal Atatürkün rəhbərliyi ilə xalq öz azadlığını qorumağa qalxmasaydı, yəqin ki, Moskva ermənilərin iddia etdikləri əraziləri onlara verəcək və buradan Şərqə qarşı əməliyyat meydanı kimi istifadə edəcəkdilər. İmperiyanın bu siyasi marağı ermənilərin də məqsədinə uyğun idi.

Əslində bu soyqırımı martın 31-nə qədər, ayın 18-21-də dörd gün ərzində şəhərin müsəlman əhalisinin top atəşinə tutulması, güllələnməsi, diri-diri yandırılması ilə başlanmışdı. Bəzi məlumatlara görə, həmin günlərdə çox sayda müsəlman qətl edilmişdi. Bu hadisələrə dönə-dönə qayıtmaq hər bir tədqiqatçı üçün çox vacibdir. Çünki tarixin ibrət dərsi olmasa nə xalqımız yaşaya bilər, nə də dövlətimiz mövcud olar. Sosialist inqilabından ötən 70 ildə SSRİ rəhbərliyinin soyqırımını ört-basdır etmək və bizlərdən unutqan, manqurt xalq yaratmaq siyasəti ölkəni millətimizi məhvə aparırdı. Tarixin dərslərindən nəticə çıxarmaq və milli varlığımızı qorumaq üçün hadisələri öyrənmək, incələmək və əxz etmək həyati zərurətdir. Bunu etməsək, yenidən torpaqlarımıza iddia, bizim köçəri, ermənilərin isə aborigen xalq dezinformasiyası reallaşa bilər.

Beləliklə, mart soyqırımı niyə ən geniş şəkildə məhz Bakıda törədilib? Qırğının törədilməsinin başlıca səbəblərindən biri də Azərbaycanın müstəqilliyinin qarşısının alınması idi. Bu suverenlik Rusiyanın o zaman dünya əhəmiyyətli neft mənbəyi olan Bakının əldən getməsi demək idi. İkinci tərəfdən xəritəyə baxdıqda Bakının Avrasiya materikində mühüm geosiyasi mövqeyə malik olduğu aşkar görünür. Şəhər müsəlman və türk dünyasının, Avropa və Asiyanın çox əhəmiyyətli nöqtəsində yerləşir. Öz mühüm iqtisadi və geosiyasi əhəmiyyətinə görə şəhər mühüm beynəlxalq mövqeyə malikdir. Beləliklə, Rusiya üçün Bakı həm enerji təhlükəsizliyinin təmini, həm də strateji mövqeni əldə etmək demək idi. Ermənilər isə etnik təmizləmə ilə həm demoqrafik üstünlükləri yaradır, həm ərazi, həm iqtisadi, həm də siyasi varlıqlarını əldə edirdilər. Göründüyü kimi, inqilab əleyhdarlarına qarşı mübarizə devizi altında törədilən soyqırımı həm Moskvaya, həm də terrorçu ermənilərə sərf edirdi.

**(davamı 4-cü səhifədə)**

# Bakıda Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzinin açılış mərasimi olub

## *Birinci vitse-prezident Mehriban Əliyeva mərasimdə iştirak edib*











**Martın 30-da Bakıda, İçərişəhərdə Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzinin açılış mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva mərasimdə iştirak ediblər.

Hamımızın sevdiyi “Bizim Cəbiş müəllim”, “Uşaqlığın son gecəsi” filmlərinin ssenari, “Mezozoy əhvalatı”, “Sən nəğməmsən mənim”, “Truskavetsə kim gedir?”, “Bütün yaxşılıqlar üçün - ölüm!” və digər əsərlərin müəllifi Maqsud İbrahimbəyovun oxucu və tamaşaçılarının sayı milyonlarladır. Onu həm Azərbaycanda, həm də xaricdə tanıyır, sevir və görkəmli yazıçı kimi yüksək qiymətləndirirlər.

Xalq Yazıçısı, görkəmli kinodramaturq və rejissor Maqsud İbrahimbəyovun Yaradıcılıq Mərkəzi martın 30-dan etibarən İçərişəhərdə fəaliyyətə başlayır.

Birinci vitse-prezident Mehriban Əliyeva Mərkəzin binasında yaradılmış şəraitlə tanış oldu.

Yazıçının həyat yoldaşı Anna İbrahimbəyova Birinci vitse-prezident Mehriban Əliyevaya məlumat verdi ki, burada Maqsud İbrahimbəyovun muzeyi, yazıçının kitabxanası və ədəbiyyat otağı yerləşir. Ədəbiyyat otağında yazıçının müxtəlif illərdə həm rus, həm Azərbaycan dillərində nəşr olunan, həm də 36 xarici dilə tərcümə edilən kitabları təqdim olunur. Burada, həmçinin yazıçının əsərlərinin dərc olunduğu bütün dərgilər toplanıb. Bundan başqa, eksponatlar arasında Maqsud İbrahimbəyovun ədəbiyyat və ictimai-siyasi fəaliyyət sahələrində əldə etdiyi nailiyyətlərə görə müxtəlif vaxtlarda təltif olunduğu orden və medallar, digər mükafatlar, deputat mandatları, fəxri fərmanlar, həmçinin 2012-ci ildə yazıçının Nobel mükafatına namizədliyinə dair sənəd də var.

Maqsud İbrahimbəyov iki azərbaycanlı zadəgan ailəsinin xələfi olub: atası Məmmədibrahim Əhməd oğlu İbrahimbəyov, anası Fatma Ələkbər qızı İbrahimbəyova-Məşədibəyova. Yaradıcılıq Mərkəzində Məşədibəyov və İbrahimbəyov ailələrinin fotoşəkilləri, eləcə də onlara məxsus qədim məişət əşyaları təqdim edilir. Mərkəzdə, həmçinin Maqsud İbrahimbəyova məxsus silah kolleksiyasının nümayiş olunduğu zal var. Maqsud İbrahimbəyov silah kolleksiyası toplayırdı. Onun kolleksiyasında dünyanın müxtəlif ölkələrindən gətirilən və ya dostları tərəfindən hədiyyə olunan qədim silahların nadir nümunələri var. Burada kitabxana və konfrans zalı da yerləşir.

Birinci vitse-prezident Mehriban Əliyeva Yaradıcılıq Mərkəzinin xatirə kitabına ürək sözlərini yazdı.

Anna İbrahimbəyova Birinci vitse-prezident Mehriban Əliyevaya və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya Xalq Yazıçısının “Qoy, o bizimlə qalsın” və “Ondan yaxşı qardaş yox idi” kitablarını hədiyyə etdi.

Sonra Anna İbrahimbəyova Maqsud İbrahimbəyovun sədri olduğu və zadəgan nəslindən olan şəxslərin şəcərəsini tanıtmaq və yaddaşlarda qoruyub saxlamaq məqsədini daşıyan Əsilzadələr Məclisinin 2006-cı ildə imzaladığı, İlham Heydər oğlu Əliyevin və Mehriban Arif qızı Əliyevanın Əsilzadələr Məclisinin üzvü olduqlarını təsdiqləyən şəhadətnamələri Birinci vitse-prezidentə təqdim etdi. Şəhadətnamələrdə qeyd edilir ki, bu sənədin sahibinin bütün nəsli Azərbaycanın Əsilzadələri cərgəsində hesab olunur.

Qeyd edək ki, 2016-2017-ci illərdə Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə Mərkəzin binasında əsaslı bərpa və konservasiya işləri aparılıb. Azərbaycan Prezidentinin 2018-ci il 1 fevral tarixli Sərəncamına əsasən indi bu binada Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzi fəaliyyət göstərəcək. Yaradıcılıq Mərkəzinin fəaliyyəti gənc yazıçılara dəstək, Azərbaycan ədəbiyyatı və mədəniyyətinin təbliği, yaradıcı gənclər üçün kreativ mühitin yaradılması və xarici ölkələrin mədəniyyət təşkilatları ilə əməkdaşlığa yönəlib.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Mərkəzin açılış mərasimində çıxış etdi.

## Birinci vitse-prezident Mehriban Əliyevanın çıxışı

- Hörmətli Anna xanım.

Xanımlar və cənablar, əziz dostlar.

Bu gün bizim sevimli paytaxtımızın mərkəzində, qədim İçərişəhərdə görkəmli Azərbaycan yazıçısı Maqsud İbrahimbəyovun Yaradıcılıq Mərkəzi açılıb. Bu, çox əlamətdar və rəmzi məna daşıyan hadisədir. Ona görə əlamətdardır ki, bu Mərkəz ölkəmizin mədəni, ədəbi, mənəvi, ictimai-siyasi irsinə mühüm töhfələr verən böyük insanın, görkəmli Azərbaycan yazıçısının xatirəsini əbədiləşdirir. Eyni zamanda, bu, çox rəmzi məna daşıyır. Səbəbini izah etmək üçün mən sizə bu evin tarixi haqqında qısa məlumat vermək istəyirəm. Bu, çox maraqlıdır. Dinləyin: Maqsud İbrahimbəyovun Yaradıcılıq Mərkəzinin yerləşdiyi bina 1914-cü ildə onun babası, neft sənayeçisi Ələkbər Məşədibəyov üçün məşhur memar Zivərbəy Əhmədbəyov tərəfindən inşa olunub. Yazıçının anası, 1924-cü ildə güllələnən Məşədibəyovun 7 övladından biri Fatma xanım burada doğulub. Sonradan ailə də buradan köçürülüb. İnqilabdan sonra XX əsrin 70-ci illərinədək bina kommunal mənzillərin olduğu yaşayış evi kimi istifadə edilib. 1941-1945-ci illərdə - Böyük Vətən müharibəsi dövründə isə binanın zirzəmisi bomba sığınacağı kimi fəaliyyət göstərib. 1978-ci ildən bu binada Sülhü Müdafiə Komitəsi yerləşib. 1983-2016-cı illərdə həmin komitəyə Maqsud İbrahimbəyov rəhbərlik edib. Komitə vətənpərvərliyin təbliği ilə, xeyriyyəçiliklə, uşaqlara, yoxsul ailələrə və müharibə veteranlarına yardım göstərməklə məşğul olub. 1993-cü ildən Maqsud İbrahimbəyovun sədrlik etdiyi dünyanın peşəkar yazıçılarını birləşdirən yeganə beynəlxalq təşkilatın bir hissəsi olan Azərbaycanın “PEN klub”u bu binada fəaliyyət göstərib. 1999-cu ildən binada Maqsud İbrahimbəyovun Azərbaycan Prezidenti Heydər Əliyevin dəstəyi ilə yaratdığı “Əsilzadələr Məclisi” fəaliyyət göstərib. Bina 2001-ci ildən İçərişəhər Dövlət Qoruğunun tarixi abidələr siyahısına daxil edilib. 2016-2017-ci illərdə Heydər Əliyev Fondunun dəstəyi ilə binada əsaslı təmir və bərpa işləri aparılıb. Azərbaycan Prezidenti İlham Əliyevin 2018-ci il 1 fevral tarixli Sərəncamı ilə bu binada Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzi yaradılıb.

Əziz dostlar, bina hörmətli Maqsud müəllimin ailəsi tərəfindən ailə üçün inşa olunub. Yüz ildən artıq müddət keçəndən sonra biz böyük bir insanın, görkəmli yazıçı Maqsud İbrahimbəyovun Yaradıcılıq Mərkəzini açdıq. Hesab edirəm ki, indi biz hamımız tarixi ədalətin təntənəsinin şahidləriyik və bu, çox gözəldir. Son dərəcə parlaq, çoxşaxəli, qeyri-adi, hədsiz istedadlı insan - Maqsud müəllim təəssüf ki, artıq iki ildir aramızda yoxdur. O, əsl vətənpərvər idi. O, bütün qəlbi ilə Azərbaycana, öz torpağına bağlı idi. O, cəsarətli vətəndaş mövqeyi olan insan idi. O, öz ideallarını və prinsiplərini bütün həyatı boyu dəyişməyib. O, uzun ömrünü səmimi, hər şeylə maraqlanan, biganəlikdən uzaq bir insan kimi yaşadı. O, həyatdan getdi, ancaq onun əsərləri, böyük bədii-mənəvi irsi - kitabları, pyesləri, ssenariləri, esseləri qaldı. Onun hər bir əsəri bu günümüz və dünənimizlə heyrətamiz dərəcədə səsləşir və şübhə etmirəm ki, sabah da aktual olacaq. Onun hər bir əsəri yaşayır. Buna görə də Maqsud müəllim yaşayır. İnsanlar - onun dostları, yaxınları, doğmaları, onu sevən, ona hörmət edən, həyatının bütün mərhələlərində onun yanında olan insanlar qalır. Ən əsası da, Maqsud müəllimin ilham pərisi Anna xanım buradadır. Anna xanım, mən təşəbbüsünüzə görə sizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Çünki məhz sizin təşəbbüsünüz sayəsində bu gün bu Mərkəz açılır. Mən sizinlə daha yaxın ünsiyyətdə olduğum bu bir neçə ildə sizə böyük hörmət bəsləyirəm, sizi çox sevirəm. Amma bu Mərkəzin yaradılması üzərində sizinlə birlikdə işləyərkən sizin iradi qüvvənizə, səbrinizə heyran qalmışam. Çünki mən başa düşürəm ki, bu şəxsi əşyaları, arxivləri yığmaq, onları sistemləşdirmək asan deyildir. Bu gün də sizin üçün asan deyil. Bu gün siz yəqin ki, ikili hisslər keçirirsiniz. Bir tərəfdən, sevimli və doğma insanın yanınızda olmamasından doğan qüssə və ağrı, digər tərəfdən, yəqin sevinc hissi keçirirsiniz ki, bu ocaq, bu ev, bu Mərkəz var.

Mən, ilk növbədə, bu Mərkəzin yaradılmasında iştirak edənlərin hamısına təşəkkür etmək istəyirəm. Heydər Əliyev Fondunun əməkdaşlarına xüsusi minnətdarlığımı bildirmək istəyirəm. Çünki biz hamımız böyük məhəbbət və məsuliyyətlə bu işə yanaşdıq. Bu Mərkəz Maqsud müəllimin adına layiq olmalı idi. Arzulayırdıq və əlbəttə çalışırdıq ki, biz hər şeydən əvvəl binanın tarixi simasını bərpa etməklə yanaşı, onun daxilində hər zaman Maqsud müəllimin özünün yaratdığı atmosfer hiss olunsun. O, əsl istedadlı insan kimi elə müsbət enerji aşılayırdı ki, onunla bir dəfə ünsiyyətdə olduqdan sonra sanki sehrlənir və onun yanında olmaq istəyirdin. Mən çox ümid edirəm ki, bu ev də belə olacaq. Ona görə, bir daha demək istəyirəm, bizim hörmətli Maqsud müəllimin Yaradıcılıq Mərkəzini məhz bu evdə açmağımız tamamilə ədalətlidir. Çox istəyirəm ki, burada onun bəyəndiyi, yaratdığı və yaşadığı mühit olsun. Düşünürəm ki, bu yer istedadlı gənclərin müxtəlif görüşlərinin keçirildiyi, azərbaycanlı yazıçıların, ədiblərin dəstəkləndiyi, ədəbi-bədii gecələrin təşkil olunduğu məkan olacaq. Yəni, mən ümid edirəm, sadəcə ümid etmirəm, həm də bilirəm ki, Mərkəzə Anna xanım rəhbərlik edəcək. Ona görə də əminəm ki, başqa cür ola da bilməz. Burada məhz Maqsud müəllimin arzu etdiyi kimi olacaq. Ruhu şad olsun!

Mən sizin hamınıza, ilk növbədə, Anna xanım, sizə xoşbəxtlik, cansağlığı arzulayıram. Qoy, siz uzun illər sağlam, gümrah, bugünkü kimi gözəl olasınız və hamıdan artıq sizə məlum olan və təəssüf ki, Maqsud müəllimin həyata keçirməyə macal tapmadığı ideya və fikirlərini gerçəkləşdirəsiniz. Çox sağ olun.

* * *

**Yazıçının həyat yoldaşı Anna İBRAHİMBƏYOVA** Maqsud İbrahimbəyovun xatirəsinə



göstərilən hörmətə və Mərkəzin yaradılması ilə bağlı dəstəyə görə Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya təşəkkürünü bildirərək dedi:

- Əziz dostlar, nə yaxşı ki, siz gəlmisiniz. Çox



sağ olun.

Mən Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzini yaradan Heydər Əliyev Fonduna çox minnətdaram. Mehriban xanım, dəstəyə, iştiraka, Maqsud müəllimə, onun yaradıcılığına olan gözəl münasibətə görə çox sağ olun. Mən isə öz növbəmdə çalışacağam ki, bura maraqlı olsun və sizin hamınız buraya məmnuniyyətlə gələsiniz.

* * *

Sonra Xalq Yazıçısının həyat və fəaliyyətini əks etdirən fotolardan ibarət videoçarx nümayiş etdirildi.

Videoçarx Maqsud İbrahimbəyovun “Uzun ömür yaşayın və qoy sizin ömrünüzün hər günü sevinclə dolu olsun” sözləri ilə yekunlaşır.

**Yazıçının dostu, Rusiyanın TASS İnformasiya Agentliyinin baş direktorunun birinci müavini Mixail QUSMAN** çıxışını Maqsud



İbrahimbəyova müraciətlə başladı. “Burada sənin dostların, səni sevənlər toplaşıblar”, - deyən Mixail Qusman “Əsilzadələr Məclisi”nə rəhbərlik edən Maqsud İbrahimbəyovun özünün həm genetik, həm ruhən zadəgan nəslindən olduğunu vurğuladı. TASS İnformasiya Agentliyinin baş direktorunun birinci müavini vətənpərvərliyin və xeyriyyəçilik fəaliyyətinin təbliği, uşaqlara, yoxsul ailələrə və müharibə veteranlarına yardım göstərməklə məşğul olan Azərbaycan Respublikasının Milli Sülh Komitəsinin rəhbəri Maqsud İbrahimbəyovun bu sahədəki fəaliyyətinə toxundu və “Sənin kimi insanlar olmadan bu dünyanı xilas etmək mümkün deyil” söylədi.

**Bakı Musiqi Akademiyasının rektoru, Xalq Artisti Fərhad BƏDƏLBƏYLİ** yazıçı ilə hər gö-



rüşdə bir-birilərinə şeirlər həsr etdiklərini bildirdi və iyirmi il bundan əvvəl Maqsud İbrahimbəyova yazdığı şeirini oxudu.

Qeyd edək ki, Xalq Yazıçısı Maqsud İbrahimbəyov tələsməyən tərzdə qeyri-adi və gündəlik hadisələr haqda yazırdı, personajlarının mənəvi dünyasını dərindən tədqiq edərək, xasiyyətlərini oxucuya çatdırırdı. Bir çox əsərlərində yazıçı ümumbəşəri problemlər kontekstindən çıxış edərək, öz ənənələri ilə güclü olan Şərq insanının həyat tərzini göstərirdi. Ötən əsrin 60-cı illərində ədəbiyyata qədəm qoyan nəslin nümayəndəsi kimi o, müasirlərinin rəngarəng, dolğun obrazlarını yaradaraq öz dəst-xətti ilə çoxsaylı pərəstişkarlarının dərin hörmət və ehtiramını qazanıb. Maqsud İbrahimbəyovun yaradıcılığında Azərbaycan xalqının milli xüsusiyyətləri, adət-ənənələri, xüsusilə Bakının özünəməxsus koloritinin təsviri yaddaqalan tərzdə əksini tapıb.

**AZƏRTAC**





# İnternet mediada və sosial şəbəkələrdə milli-mənəvi dəyərlərin qorunması mövzusunda tədbir keçirilib

**Martın 30-da Azərbaycan Mətbuat Şurasının təşkilatçılığı ilə Beynəlxalq Mətbuat Mərkəzində "İnternet mediada və sosial şəbəkələrdə milli-mənəvi dəyərlərin qorunması: mənfi meyillərə qarşı jurnalist həmrəyliyi" mövzusunda tədbir keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı **Əflatun Amaşov** tədbirdə çıxış edərək Avropaya sığınan bir neçə azərbaycanlının son zamanlar etik prinsipləri pozaraq Azərbaycan, dövlətimizin başçısı, dövlət rəmzləri haqqında təhqiredici ifadələr səsləndirdiklərini söyləyib. O deyib ki, qarşıdan prezident seçkiləri gəlir və biz belə çirkin əməlləri bununla əlaqələndiririk.

Mətbuat Şurasının sədri bildirib ki, belə çirkin əməllər əvvəlki seçkilərdə də müşahidə olunub. Lakin bu hal indi daha kəskin və sərt təhqir, qəzəb və söyüşlə müşayiət olunur. Belə qüvvələrin məqsədi cəmiyyətdə bölücülük yaratmaqdır. Lakin onlar azlıq təşkil edirlər. Bu gün Avropada və dünyanın digər ölkələrində xeyli sayda azərbaycanlı yaşayır. Onlar Azərbaycanı xaricdə uğurla təmsil edir, ölkəmizlə bağlı həqiqətləri fəal təbliğ edirlər.

Diqqətə çatdırılıb ki, təhqir və söyüş üsulunu siyasi mübarizə yolu kimi seçən müəyyən insanlar yaşadıqları ölkələrdən müxtəlif təhdidlər səsləndirirlər. Bu, qanunla qadağandır və insan hüquqlarına ziddir. Bu tədbirin keçirilməsi cəmiyyətdə barışın və həmrəyliyin qorunması üçün çox vacibdir.

Sonra Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi **Əli Həsənov** çıxış edib. Mətbuat Şurasının təşəbbüsü ilə keçirilən bu tədbirin aktual mövzuya həsr olunduğunu qeyd edən Prezidentin köməkçisi deyib ki, cəmiyyətimizi düşündürən mühüm ictimai-siyasi proses - prezident seçkisi ərəfəsində belə mövzuda müzakirələrin aparılması çox önəmlidir.

Əli Həsənov deyib ki, dünyada xalqların gücü onların sayı, yaşadığı ərazinin böyüklüyü, iqtisadi resursları ilə yanaşı, həm də həmin xalqı təmsil edən milli elitanın səviyyəsi, fəallığı, ölkə daxilində və xaricində baş verən hadisələrə yanaşması ilə ölçülür. Azərbaycan cəmiyyəti də digər cəmiyyətlərdən ciddi fərqlənmir. Milli elitanın ən fəal təbəqəsi qələm sahibləridir. Azərbaycan cəmiyyətində həmişə mühüm proseslərə qiymət verən, insanlarda həmin hadisələrlə bağlı münasibət formalaşdırmağa təsir edən məhz belə ziyalılardır. Çox yaxşı haldır ki, bu məsələdə də obyektiv mövqedən çıxış edən ziyalılarımız oldu.

Prezidentin köməkçisi bildirib ki, xarici ölkələrdə yaşayan bir neçə azərbaycanlının ölkəmizə qarşı heç bir əxlaq çərçivəsinə sığmayan münasibətlərinə, fikirlərinə cəmiyyətin əksər üzvləri kifayət qədər konstruktiv, təsirli və cəmiyyət üçün əhəmiyyətli rakurslardan yanaşaraq münasibət bildirirlər.

Yeni yüzilliyin əvvəllərindən etibarən sosial şəbəkələrin dünya siyasətinə, qlobal informasiya mühitinə təsir edən, bir sıra hallarda ayrı-ayrı ölkələrdəki daxili siyasi mübarizənin taleyini həll edən əsas vasitələrdən biri kimi qəbul olunmağa başladığını diqqətə çatdıran Əli Həsənov deyib ki, sosial şəbəkələrin son illərdə yaratdığı imkanların Avrasiya və Yaxın Şərq coğrafiyasında, xüsusən də ərəb ölkələrində hansı fəsadlara gətirib çıxardığı bu gün də əsas müzakirə mövzularından biridir. Hətta 2011-ci ildə Böyük Britaniyada baş vermiş iğtişaşlar zamanı sosial şəbəkələrdən istifadə məhdudlaşdırıldı və bu addımın "zərərli çağırışların qarşısını almaq" məqsədi daşıdığı bildirildi. Yəqin elə bu səbəbdəndir ki, Azərbaycanla qonşu olan böyük ölkələrdə ayrı-ayrı vaxtlarda sosial şəbəkələr məhdudlaşdırılıb, ya da böyük milli şəbəkələr yaradılmasına cəhd göstərilib.

Prezidentin köməkçisi qeyd edib ki, Azərbaycan heç bir dönəmdə, ən azından ümummilli lider Heydər Əliyev tərəfindən 1998-ci il avqustun 6-da KİV üzərindən bütün senzura və qadağalar ləğv olunduqdan sonra nə hər hansı media qurumunun fəaliyyətinə məhdudiyyət qoymayıb, nə yeni fenomen olan şəbəkə məhdudlaşdırma yolunu seçməyib, nə də ki, ölkəmizdə milli şəbəkələrin qurulmasına təşəbbüs göstərməyib. Qlobal informasiya və ünsiyyət şəbəkələrinə giriş bizim ölkədə sərbəstdir və bəzi milli dönüklərin okeanın o tayından verdikləri saxta proqnozlara baxmayaraq, sərbəst də saxlanılacaq. Azərbaycan hakimiyyəti bəhs etdiyim dövrdə sosial şəbəkələrə cəmiyyətlə və dünya ilə asan təmas imkanlarından biri kimi yanaşıb və yanaşmaqda da davam edir. Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin özünün, müxtəlif dövlət qurumlarının, ayrı-ayrı vəzifəli şəxslərin rəsmi sosial profilləri fəaliyyət göstərir. Prezident dəfələrlə sosial şəbəkələrdə qaldırılan problemlərə reaksiya verib, internetə məlumat mənbələrindən biri kimi yanaşdığını bildirib.

Hazırda Azərbaycanda Facebook, Tvitter, Youtube, İnstagram və digər sosial şəbəkələrdə istifadəçilərin sayının 3 milyona yaxınlaşdığını qeyd edən Əli Həsənov deyib ki, cəmi 10 milyona yaxın əhalisi olan bir ölkə üçün bu, həqiqətən böyük göstəricidir. Azərbaycanda müasir rabitə və internet infrastrukturunun qurulması, tariflərin region ölkələrindəki qiymətlərlə uyğunlaşdırılması, hər kəsin bu sahədə sərbəst fəaliyyəti üçün şərait yaradılması, mövcud seqmentdə fikir plüralizminin təmin olunması ölkəmizdə sosial şəbəkələrin inkişafına müsbət təsir göstərən əsas amillərdir.

Prezidentin köməkçisi deyib: "Azərbaycan hakimiyyətinin sosial şəbəkələrə müsbət münasibəti, bu seqmentdən geniş istifadə üçün yaratdığı hərtərəfli şərait müqabilində təəssüf ki, bəzi dairələrin mövcud imkanlardan suiistifadə cəhdləri cəmiyyətimizi narahat etməyə bilməz. Müəyyən xarici qüvvələrin və daxili siyasi qrupların Azərbaycan hakimiyyətinə, bir çox hallarda isə bütövlükdə Azərbaycan dövlətinə qarşı davamlı olaraq iyrənc kampaniya aparması bunu açıq şəkildə göstərir. Ayrı-ayrı vaxtlarda təşkil olunan kampaniyaların təşkilatçıları və iştirakçıları ölkədəki dünyəvi rejimi, etnik-dini münasibətlər sistemini hədəf götürür, ölkəmizin adının belə "tarixi səhv" nəticəsində yarandığı haqda uydurmalar yayırlar. Məqsədyönlü şəkildə açılmış, fərqli radikal dini qrupların, separatçı dərnəklərin nəzarətində olan səhifələr ölkədəki tolerant mühiti, ən böyük sərvətimiz və inkişafımızın rəhni olan sabitliyi hədəfə alırlar. Sirr deyil ki, bu çevrələr, dərnəklər, qruplar bəzi qonşu dövlətlərin, xüsusən Ermənistanın məkrli mərkəzlərinin təsiri altındadır. Yenə də təəssüflə qeyd etməliyəm ki, 2015-ci ildən üzü bəri dövlətimizin başçısının şəxsiyyətinə, ailə üzvlərinə, komandasına, vəzifəli şəxslərin ailə üzvlərinə qarşı aparılan çirkin kampaniya anti-Azərbaycan mərkəzlərin fəaliyyəti ilə sinxronluq təşkil edir. Bu ardıcıllıq hətta böyük informasiya axınına çıxışı olmayan sıravi, amma diqqətli vətəndaşlarda belə koordinasiyalı fəaliyyət təəssüratı yaradır. İnformasiyalara çıxış olan dövlət adamları, ictimai xadimlər, media nümayəndələri üçün isə bu, sadəcə, təəssürat deyil, real faktdır".



Son zamanlar, xüsusən də Azərbaycanda növbəti prezident seçkiləri aprelin 11-nə təyin olunandan sonra qeyd edilən mərkəzlərin məkrli "Azərbaycan layihəsi"ni dövriyyəyə buraxdıqlarını diqqətə çatdıran Əli Həsənov bildirib ki, onlar bu işə xarici ölkələrdə müxtəlif vasitələrlə öz təsirləri altında saxladıqları bəzi soydaşlarımızı qoşublar. Qısa zaman kəsiyində bu çirkin kampaniya ifrat həddə çatdığına görə ölkənin informasiya siyasətinə, diaspor nümayəndələri ilə əlaqələrə məsul şəxs kimi mən mövcud durumun kəskinliyi barədə xüsusi bəyanatla çıxış etdim və ölkə ictimaiyyətini məlumatlandırdım. Fevralın sonunda Niderlandda diaspor nümayəndələri ilə görüşdə, martın əvvəlində isə jurnalistlərin qurultayındakı çıxışımda mən üzümü bu kampaniyanı təşkil edənlərə və icraçılara tutaraq belə antimilli fəaliyyətin Azərbaycan cəmiyyəti tərəfindən heç zaman dəstəklənməyəcəyini bəyan etdim. Bunun ardınca bir neçə gün sonra Mətbuat Şurasının 15 illik yubileyində bir daha bu fəaliyyəti başlayanlara və icraçılara çağırış etdim. Amma təəssüf edirəm ki, onlar bu çirkin fəaliyyəti dayandırmadılar. Novruz bayramı günü mən yenidən, bu dəfə özlərini bizim hakimiyyətə opponent hesab edən qrupların sevimli platforması sayılan Facebook vasitəsilə çıxış etdim. Sevinirəm ki, ard-arda dərc etdiyim bu müraciət və statuslar media nümayəndələri, yaradıcı insanlar, QHT təmsilçiləri - bir sözlə, ölkə ziyalılarının geniş spektri tərəfindən müsbət qarşılandı. Çünki ortada Azərbaycanın milli maraqları, dövlətimizin mənafeyi, xalqımızın mənəviyyatı məsələsi dayanmışdı. Mənim milli ziyalılarımızın belə məqamlarda, xüsusən də dövlətçiliyimizin əsaslarına təhlükə yarananda yüksək vətənpərvərlik göstərəcəklərinə heç bir şübhəm yox idi və belə də oldu.

Prezidentin köməkçisi deyib: "Son günlərin müzakirələri həm də xaricdə oturub anti-Azərbaycan dairələrin aləti qismində çıxış edənlərin, "söyüş makinası"na yem olanların iç üzünü açdı və cəmiyyətə tanıtdırdı. O da göründü ki, Azərbaycanın daxilində oturub çirkin söyüş müxalifətini dəstəkləyənlər, onların mənəviyyatsız əməllərini bəzi hakimiyyət dairələrinin adına yazaraq Prezidentin komandasında qarşıdurma yaratmaq istəyənlər daha ziyanlı mənəviyyat sahibidirlər. Bu müzakirələrdən sonra əvvəllər barışdırıcı kimi görünməyə çalışanların çıxışlarında, təhlillərində bir həqiqət etiraf olunmağa başlayıb - hədəf, sadəcə, Prezident və onun ailə üzvləri, komandası, o komanda üzvlərindən biri olan mən - Əli Həsənov deyil. Məqsəd Şərq mentalitetinin incəliyinə hesablanıb - hədəf birinci şəxsin və komandasının müsbət imicini zədələməklə, onlara qarşı kütləvi narazılıq ovqatı formalaşdırmaqla, komandadaxili qarşıdurma yaratmaqla ölkədəki mövcud sabitliyi pozmağa nail olmaqdır. Bu işin təşkilatçıları və icraçılarını Azərbaycanı suriyalaşdırmaq istəyən "virtual İŞİD" adlandırmaqda haqlı olduğum indi həmin qüvvələrin "ağsaqqalları" tərəfindən dolayısı ilə etiraf olunur".

Əslində, bunun yeni plan olmadığını vurğulayan Əli Həsənov bildirib ki, hələ Dağlıq Qarabağ münaqişəsi başlayanda erməni lobbisi öz mənfur arzusuna çatmaq üçün Bakını Beyruta, Azərbaycanı Livana çevirmək istəyirdi və bunu gizlətmirdi. Həmin qüvvələr və "sapı özümüzdən olan baltalar" 2003-cü və 2008-ci illərdə ciddcəhdlə buna çalışdılar. Lakin o dövrdə Prezident İlham Əliyevin xalqla birliyinə və dəmir iradəsinə çırpılaraq geri çəkildilər. Belələri 2013-cü ildə yeni bir məkrli plan quraraq, xarici dairələrin köməyi ilə "Milyarderlər İttifaqı" yaratdı və "aldanmış kəvakib"dən istifadə edərək hakimiyyəti ələ keçirməyə cəhd göstərdilər. Xoşbəxtlikdən hər dəfə də bu antimilli ünsürlər ölkə Prezidentinin dəmir iradəsi, onun sədaqətli silahdaşlarının yekdil mövqeyi və ən əsası, Azərbaycan xalqının keçilməz müqaviməti ilə üzləşərək necə gəlmişdilərsə, eləcə də qayıdıb getdilər. Bu gün də onlar yatmayıb, sadəcə olaraq, qəfil yaxalandıqları üçün hazırlıqsızdırlar. Odur ki, güman qalıb onların daim bacardıqları işə - xəyanətə, hiyləyə və bir də söyüşə. Bu dəfə "livanlaşdırma" termini də dəyişib və "suriyalaşdırma" ilə əvəz olunub.

Prezidentin köməkçisi deyib: "Hazırkı siyasət masasının üzərində bizim dövlətin əsas maraq və mənafeləri, dəyərləri, bütün dünyada yaşayan soydaşlarımızı birləşdirən azərbaycançılıq ideyasının taleyı, dövlət təhlükəsizliyimiz, mənsub olduğumuz xalqın milli-mənəvi dəyərləri və milli heysiyyətimiz durur. Özünü azərbaycanlı sayan heç kimin biganə qala bilməyəcəyi dəyərlərimizə haqsız, məkrli, düşünülmüş, əlaqələndirilən hücum var. Belə hallarda heç birimiz gözləmə mövqeyi tuta bilmərik. Biz ya ictimai meydanı dövlətimizi "Aran", "Abşeron sultanlığı" adlandıran xain və məkrli qüvvələrin əlində alətə çevrilmiş qaragüruhçu ünsürlərə verməli, ya da milli elitanı, ölkə ziyalılarını səfərbər edərək bu antiəxlaq ünsürlərinə "dur" deməliyik, insanları yanlış yoldan çəkindirməyi bacarmalıyıq. Buna görə də xalqımız və dövlətimizin firavan gələcəyi naminə fəaliyyət göstərən millət vəkillərimiz, siyasətçilərimiz, alimlərimiz, yazıçılarımız - bir sözlə, ziyalı adını daşıya biləcək hər kəs öz mövqeyini nümayiş etdirməli və biabırçı "söyüş makinası"nı, təhqir qaragüruhunu dayandırmalıdır.

Ölkəmizdə mətbuat və söz azadlığının tam təmin olunduğunu vurğulayan "Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı **Bəxtiyar Sadıqov** təəssüflə bildirib ki, bəzi insanlar ölkəmizdə ifadə azadlığından söyüş və təhqir azadlığı kimi istifadə edirlər. Azərbaycandan kənarda yaşayan həmvətənlərimiz xalqımızın milli-mənəvi dəyərlərini, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması vəzifəsini unutmamalıdırlar. Söyüş və təhqirin heç vaxt mübarizə vasitəsi ola bilməyəcəyini deyən B.Sadıqov bildirib ki, həmin insanların mübarizəni bu üsullarla aparmaları onların əlində heç bir faktın olmadığını göstərir.

Milli Məclisin deputatı **Aqil Abbas** belə hadisələrlə bağlı parlamentdə də müzakirələrin aparıldığını vurğulayaraq deyib ki, Azərbaycanda hansısa bir ölkə haqqında münasibət bildiriləndə həmin ölkələrin səfirliklərinin dərhal ciddi etirazları ilə qarşılanır. Ona görə də Azərbaycanın xarici ölkələrdəki səfirlikləri həmin dövlətlərin müvafiq qurumlarına ölkəmizdə vətəndaş qarşıdurması yaratmaqla bağlı çağırışlar səsləndirən bu insanlar barədə lazımi tədbirlərin görülməsi üçün fəallığı artırmalıdırlar. Çox təəssüf ki, belə insanlar Azərbaycanda da var. Bu gün Azərbaycan cəmiyyəti, o cümlədən ziyalılarımız belə şəxslərə qarşı lazımi səviyyədə tutarlı cavab verirlər.

"Şərq" qəzetinin baş redaktoru **Akif Aşırlı** xaricdə yaşayan bəzi azərbaycanlının Azərbaycan, dövlətimizin başçısı və müəyyən dövlət məmurları haqqında təhqiredici ifadələr səsləndirməsini ciddi qınayıb. Bəzi ziyalıların bu insanları dialoqa çağırmalarından sonra həmin ziyalılara qarşı da hücumların olması belə insanların ölkəmizə qarşı nə dərəcədə barışmaz mövqe tutduqlarını göstərir. Həmin insanlar Azərbaycan ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması ilə bağlı xaricdə keçirilən tədbirlərdə iştirak etmirlər. Ümumiyyətlə, onların bəziləri hətta başqa ölkələrin pasportlarını daşıyırlar. A.Aşırlı sosial şəbəkələrdəki bu cür təhdidlərin qarşısının alınmasında onlayn mediadan istifadə mövzusunun tədris proqramına salınmasının və xaricdə yaşayan azərbaycanlılardan ibarət vətəndaş birliyi xartiyasının yaradılmasının əhəmiyyətini bildirib.

"Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı **Hikmət Babaoğlu** deyib ki, qlobal imperializmin silahı qismində yaradılan sosial şəbəkələrdən milli dövlətlərə qarşı yumşaq güc vasitəsi kimi istifadə olunur. Siyasi intellektual mübarizənin əsas komponentlərindən birinin siyasi əxlaq və mədəniyyət olduğunu vurğulayan H.Babaoğlu deyib ki, biz "yumşaq güc" vasitəsilə münasibətləri hüquqi mexanizmlərlə tənzimləməliyik. Belə ki, siyasi mübarizədə təhqir və söyüşlərdən istifadənin qarşısı hüquqi yollarla alınmalıdır.

Azərbaycan Televiziyasının informasiya proqramları studiyasının baş direktoru **Faiq Hüsüyev** bildirib ki, taleyüklü məqamlarda cəmiyyətin bütün üzvləri birləşərək yekdil mövqedən çıxış etməlidirlər. Təəssüf ki, xaricdə yaşayan bəzi azərbaycanlılar ölkəmiz haqqında söyüş və təhqirlər yağdıraraq nəyəsə nail ola biləcəklərini düşünürlər. Faiq Hüsüyev ziyalıların və jurnalistlərin belə şəxslərə qarşı fəal mübarizə aparmalarının, bu cür halların qarşısının alınması üçün ictimai qınağın təşkil edilməsinin vacibliyini vurğulayıb.

"Olaylar" qəzetinin baş redaktoru **Yunus Oğuz** qeyd edib ki, adətən ölkəmizlə bağlı mühüm ictimai-siyasi hadisələr, seçkilər, xüsusilə beynəlxalq qurumların Azərbaycana dair hesabatlarının açıqlanması ərəfəsində xaricdə yaşayan və ələ alınmış bəzi azərbaycanlılar tərəfindən ölkəmiz, dövlətimiz, seçkilər dövründə isə namizədlərə qarşı sistemli şəkildə təhqir və böhtan xarakterli fikirlər səsləndirilir. Biz buna qarşı vahid mövqedən çıxış etməliyik.

Azərbaycan Milli Televiziya və Radio Şurasının sədri **Nuşirəvan Məhərrəmli** ölkəmizin dünyada sabitlik adası olduğunu vurğulayaraq bildirib ki, xaricdə yaşayan bəzi azərbaycanlılar tərəfindən belə böhtan və təhqir kampaniyasının aparılması Azərbaycandakı ictimai-siyasi sabitliyin pozulması məqsədinə xidmət edir. Belə insanlar hətta milli mentalitetimizin qırmızı cizgisini keçən ən sərt təhqir və söyüşlərdən istifadə edirlər. Ona görə də cəmiyyətimizin hər bir üzvü, o cümlədən həm QHT, həm də KİV təmsilçiləri belə hallara qarşı ortaq mövqedən çıxış edərək, güclü ictimai qınaq formalaşdırmalıdırlar.

"Gününsəsi.info" saytının baş redaktoru **Pərviz Həşimli** Azərbaycana qarşı böhtan və şər xarakterli təhqiredici fikirlər səsləndirən belə şəxslərin mühüm ictimai-siyasi hadisələr ərəfəsində fəallaşdıqlarını qeyd edib. O, cəmiyyətin bütün üzvlərinin onların bu hərəkətlərinə qarşı sərt mövqedən çıxış etmələrinin vacibliyini bildirib.

"Təzadlar" qəzetinin baş redaktoru **Asif Mərzili** deyib ki, xaricdə yaşayan bəzi azərbaycanlıların ölkəmiz əleyhinə apardıqları təhqir və söyüş kampaniyasına qarşı Azərbaycan cəmiyyətinin hər bir üzvü ən sərt və kəskin qınaq nümayiş etdirməlidir.

"İki sahil" qəzetinin baş redaktoru **Vüqar Rəhimzadə** Azərbaycan cəmiyyətində qəbul olunmayan, ermənipərəst qüvvələrin mövqelərindən çıxış edən həmin insanların ölkəmizdə baş verən ictimai-siyasi proseslərə küçə təfəkkürü ilə yanaşmalarını qara ləkə adlandırıb. V.Rəhimzadə belə şəxslərə qarşı hüquqi müstəvidə sərt mübarizənin aparılmasının vacibliyini qeyd edib.

Milli Məclisin deputatı **Elşən Musayev** bildirib ki, həmin şəxslərin səsləndirdikləri böhtan, şər, təhqir, eləcə də ölkəmizdə qarşıdurma yaratmaq çağırışları ilə bağlı Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həmin dövlətlərin aidiyyəti qurumlarına müraciət edərək lazımi tədbirlərin görülməsini təmin etməlidir.

"Xalq qəzeti"nin baş redaktoru **Həsən Həsənov** xarici ölkələrə sığınan bəzi azərbaycanlıların xalqımıza qarşı mənfi mövqe tutmalarının, böhtan, təhqir yağdırmalarının cəmiyyətin hər bir üzvünün sərt narazılığına səbəb olduğunu bildirib. Hüquq mühafizə orqanları belə şəxslərə qarşı Azərbaycan qanunvericiliyinə uyğun olaraq lazımi tədbirlər görməli, İnterpola müraciət etməlidirlər. Həsən Həsənov təəssüflə bildirib ki, öz xalqı və dövləti əleyhinə təhqirlər səsləndirən belə azərbaycanlılar xalqımıza qarşı soyqırımları törətmiş erməni liderləri barədə etiraz bildirməyiblər.

"Bakinski raboçi" qəzetinin və "1news.az" saytının baş redaktoru **Rəhman Hacıyev** həmin şəxslərin müəyyən qüvvələrin sifarişlərini yerinə yetirdiklərini bildirib. Azərbaycan dövlətinin internetdən istifadəyə son dərəcə liberal davrandığını vurğulayan R.Hacıyev deyib ki, son zamanlar super dövlətlər tərəfindən sosial şəbəkələrdəki məlumatlardan müəyyən təsir və təzyiq vasitəsi kimi istifadə olunur. Buna görə də sosial şəbəkələrdən və internetdən istifadəyə nəzarət gücləndirilməlidir.

"Gündəlik Teleqraf" media qrupunun rəhbəri **Aynur Camalqızı** ölkəmiz əleyhinə çağırışların yer aldığı çarxların sosial şəbəkələrdən, o cümlədən "Youtube" sosial şəbəkəsindən çıxarılması ilə bağlı rəhbərlik etdiyi media qurumu tərəfindən görülən işlərdən danışıb. O, hüquq mühafizə orqanlarının belə hallarla bağlı lazımi tədbirlərin görülməsinin və cəmiyyətin hər bir üzvünün, xüsusən də ziyalıların kəskin mövqe bildirmələrinin vacibliyini qeyd edib.

"Yeni Müsavat" qəzetinin baş redaktoru **Rauf Arifoğlu** xaricdə yaşayan azərbaycanlıların ölkəmiz əleyhinə çıxış etmələrinin əslində böyük qüvvələrin Azərbaycan dövlətinə qarşı həyata keçirmək istədikləri məkrli planın tərkib hissəsi olduğunu deyib. Bildirib ki, bu gün Azərbaycanda mövcud olan möhkəm ictimai-siyasi sabitliyi pozmaq istəyən qüvvələr həmin şəxslərdən istifadə edirlər. Təsadüfi deyil ki, buna görə də həmin qüvvələr Azərbaycandakı sabitliyin əsas dayağı olan xalq-iqtidar həmrəyliyini hədəfə alıblar.

Azərbaycan Demokratik Tələbə Gənclər Təşkilatının sədri **Asif Əsgərli** bəzi şəxslərin xalqımızın milli-mənəvi və əxlaqi dəyərlərini hədəfə almalarını, ölkəmizə qarşı mənfi mövqe tutmalarını barbarlıq nümunəsi adlandırıb. O, xaricdə yaşayan bəzi azərbaycanlıların ölkəmizin əleyhinə çıxış etmələrinin ermənipərəst qüvvələrin maraqlarına xidmət etdiyini bildirib.

Müzakirələrə yekun vuran Prezidentin köməkçisi **Əli Həsənov** jurnalistlərin cəmiyyətin avanqard qüvvəsi olduqlarını vurğulayaraq, fəal vətəndaşlıq və ziyalı mövqeyinə görə minnətdarlığını bildirib. Azərbaycan dövlətinin sağlam və peşəkar jurnalistlərə güvəndiyini deyən Əli Həsənov bildirib ki, ölkədə ictimai rəyi formalaşdıran, milli elitanı hərəkətə gətirən peşəkar jurnalistlərin olması çox əhəmiyyətlidir.

Əli Həsənov qeyd edib ki, bu gün Azərbaycanda dövlət siyasətinin həyata keçirilməsinin, onun uğurlu inkişafının və xaricdə təmsil olunmasının qarantı Azərbaycan Prezidentidir. Azərbaycan Prezidentinin siyasətinin gücü onun xalqın əksəriyyəti tərəfindən dəstəklənməsi, milli iradəyə söykənməsidir. Bu tədbirin məqsədi Azərbaycan dövləti ilə bağlı məkrli planlarını həyata keçirməyə çalışan qüvvələrə qarşı jurnalistlərin mövqeyini ifadə etməkdir. Tədbirdə Azərbaycan dövlətçiliyinin və milli maraqlarının əsas sütunlarının sarsıdılması cəhdlərinə qarşı mübarizə yollarının müzakirə edildiyini vurğulayan Prezidentin köməkçisi deyib ki, xalqımız ölkəmizdə sabitliyin inkişafını istəməyən, Azərbaycanın enerji resurslarında maraqları olan qüvvələrin öz niyyətlərini həyata keçirmələrinə imkan verməyəcək.

**AZƏRTAC**

*Sorğu:*

## Azərbaycanda prezident seçkiləri ilə bağlı kampaniyaya əhali arasında maraq kifayət qədər böyükdür

*"OpinonWay" təşkilatı və "Vətəndaş Cəmiyyəti Uğrunda" Müstəqil Məsləhət və Yardım Mərkəzi prezident seçkiləri ərəfəsində keçirdiyi rəy sorğusunun nəticələrini açıqlayıb*

**Fransanın "OpinonWay" Sosioloji Tədqiqatlar İnstitutu "Vətəndaş Cəmiyyəti Uğrunda" Müstəqil Məsləhət və Yardım Mərkəzi ilə birlikdə prezident seçkiləri ərəfəsində Azərbaycandakı ictimai-siyasi və sosial-iqtisadi vəziyyətin qiymətləndirilməsi, habelə əhalinin seçkilərdə iştirakına maraq səviyyəsinin öyrənilməsi məqsədilə cari ilin mart ayında sosioloji sorğu keçirib.**

**AZƏRTAC xəbər verir ki, martın 30-da sorğunun nəticələri elan olunub.**

"OpinonWay" təşkilatının nümayəndəsi Bruno Janbart bildirib ki, sorğuya Naxçıvan Muxtar Respublikasının ərazisi və işğal olunmuş rayonlar istisna olunmaqla respublikanın digər şəhər və rayonlarında yaşayan və yaşı 18-dən yuxarı olan 1200 respondent cəlb olunub.

Sorğuda iştirak edəcək respondentlərin müəyyənləşdirilməsi cins, yaş qrupu və yaşayış məntəqələrinin tipləri (şəhər və kənd) üzrə kvotalar tətbiq edilməklə çoxmərhələli təsadüfi seçmə metodologiyası əsasında aparılıb. Sahə işləri bu tip tədqiqatlarda geniş təcrübi bilik və bacarıqlara malik tədqiqat qrupu tərəfindən strukturlaşdırılmış sorğu anketindən istifadə edilməklə üz-üzə müsahibə formasında həyata keçirilib.

Sorğuda iştirak edən respondentlərin 48,1 faizini kişilər, 51,9 faizini qadınlar təşkil edib. Respondentlərin 15,6 faizi 18-24, 24,5 faizi 25-34, 33 faizi 35-49, 18,5 faizi 50-64 yaş, 8,4 faizi isə 65 yaş və daha yaşlı qruplara aid olub.

Respublikadakı mövcud iqtisadi vəziyyətin qiymətləndirilməsi məqsədi daşıyan suala respondentlərin 45,9 faizi vəziyyətin əvvəlki illərə nisbətən daha da yaxşılaşdığı, 23,4 faizi dəyişilməz qaldığı, 11,7 faizi isə pisə doğru dəyişdiyi qənaətində olduqlarını bildirib. Bir sıra ictimai, siyasi və iqtisadi məsələlərlə bağlı mövcud vəziyyətin nə dərəcədə qənaətbəxş olduğunu öyrənmək üçün respondentlərə verilmiş suala rəyi soruşulanların 67,6 faizi milli təhlükəsizlik, 66,1 faizi iş imkanlarının mövcudluğu, 60,4 faizi isə cinayətkarlıqla mübarizənin onları qane etdiyini vurğulayıb.

Sorğu zamanı respondentlərin 68,9 faizi Azərbaycanda mövcud siyasi sistemin fəaliyyətindən razı, 15,4 faizi isə narazı olduğunu göstərib. Rəyi soruşulanların 15,7 faizi sualı cavablandırmaqda çətinlik çəkib.

"Prezident İlham Əliyevin ölkə başçısı kimi vəzifəsinin icrası sizi nə dərəcədə qane edir" sualına rəyi soruşulan respondentlərin 81,4 faizi bu məsələnin onları qane etdiyini, 11,2 faizi isə qane etmədiyini göstərib. Respondentlərin 7,4 faizi bu sual ilə bağlı hər hansı münasibət bildirməkdə çətinlik çəkdiyini bildirib.

Sorğunun nəticələri onu söyləməyə imkan verir ki, əhali arasında prezident seçkiləri ilə bağlı aparılan kampaniyaya maraq kifayət qədər böyükdür. Belə ki, respondentlərin 78,2 faizi bu kampaniya ilə bağlı maraqlı olduğunu qeyd edib. Sorğuda iştirak edənlərin 15,2 faizi seçki kampaniyası ilə ümumiyyətlə maraqlanmadığını göstərib, 6,6 faizi isə sualı cavablandırmaqdan imtina edib.

Seçkilərdə iştirak edib-etməyəcəkləri ilə bağlı sualı cavablandıran respondentlərin 80,5 faizi qarşıdan gələn seçkilərdə iştirak edəcəyini, 12,7 faizi istə iştirak etməyəcəyini bildirib. Respondentlərin 6,8 faizi seçkidə iştirakları ilə bağlı hələ yekun qərar qəbul etmədiyini göstərib.

"Aprelin 11-də keçiriləcək prezident seçkiləri bu gün keçirilsəydi hansı namizədə səs verərdiniz?" sualına cavabda sorğuda iştirak edən respondentlərin 83,4 faizi İlham Əliyevi seçib. Rəyi soruşulanların 12 faizi seçki kampaniyasında iştirak edən digər 7 nəfərə səs vermək niyyətini bildirib. Respondentlərin 1,9 faizi namizədlərdən heç birinə səs vermək istəmədiyini, 2,7 faizi isə bununla bağlı hazırda hər hansı bir fikri olmadığını göstərib.

**AZƏRTAC**

## Azərbaycan Hökuməti ilə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı arasında əlaqələr uğurla davam etdirilir



**Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyasının sədri Əli Həsənov martın 30-da BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Furio de Angelis ilə görüşüb.**

Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan Hökuməti ilə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı arasındakı əlaqələrin yaxşı əsaslar üzərində qurulduğu və bu əlaqələrin bu gün də uğurla davam etdirildiyi vurğulanıb.

Azərbaycanın qazandığı uğurlardan, ölkəmizdəki qaçqın və məcburi köçkün problemlərinin həlli istiqamətində dövlətin həyata keçirdiyi tədbirlərdən danışan Baş nazirin müavini Azərbaycanın bütün ölkələrlə, beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlığa xüsusi önəm verdiyini deyib.

Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı Sərəncamın, məcburi köçkünlərin öz doğma yurdlarına geriyə qayıtmasının böyük tarixi əhəmiyyət kəsb etdiyini deyən Furio de Angelis kənd sakinlərinin geriyə qayıdışından sonra BMT QAK-ın Azərbaycandakı nümayəndəliyi tərəfindən 2017-ci ildə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində keçirilən qiymətləndirmənin nəticələrindən danışıb. Furio de Angelis gələcəkdə məcburi köçkünlərlə bağlı bir sıra layihələrin həyata keçirilməsini planlaşdırdıqlarını söyləyib.

BMT QAK-ın Azərbaycandakı nümayəndəliyinin fəaliyyətə başladığı müddətdən bəri ölkəmizdəki qaçqın və məcburi köçkünlərin problemlərinin həlli ilə bağlı davamlı və şəffaf şəkildə müxtəlif layihələr həyata keçirməyə hazır olduğunu deyən Əli Həsənov gələcəkdə nəzərdə tutulan layihələrlə bağlı tövsiyələrini bildirib.

AZƏRTAC

# 31 Mart soyqırımı qan yaddaşımızda

(əvvəli 1-ci səhifədə)

Təsədüfi deyil ki, peşəkar inqilabçı V.İ.Lenin "Bakı neft, işıq və enerjidir" deyirdi və bu sözlərin mahiyyətində işğal məqsədi aydın görünürdü. Bu siyasətin hərəkətverici mexanizmində, ermənilərin də öz məqsədlərinə nail olması imperiya maraqlarına kombinə edilmişdi. Lakin erməni xislətindəki qeyri-insanilik, qəddarlıq və barbarlıq o qədər yüksək idi ki, etnik təmizləmə prosesinin gizlədilməsini qeyri-mümkün etdi və riyakar irqçi Stepan Şaumyanın aşağıdakı sözləri mart qırğınının törədilməsinin şüurlu oluğunu tam aşkar göstərdi: "Bizim süvari dəstəsi ilk silahlı hücum cəhdindən bəhanə kimi istifadə edib, bütün cəbhə boyu hücuma keçdi. Bizim 6 min nəfərə qədər silahlı qüvvəmiz vardı. Eyni zamanda Daşnaksütyunun da 3-4 minə qədər milli dəstələri vardı. Onların iştirakı vətəndaş müharibəsinə milli qırğın xarakteri verdi və bundan qaçmaq mümkün deyildi. Biz buna şüurlu olaraq getdik. Əgər onlar Bakıda qələbə qazansaydılar, şəhər Azərbaycanın paytaxtı elan edilərdi".

Martın 30-da axşam saat 5-də Bakıda ilk atəşlər açıldı və soyqırımı başladı. Ermənilər mart qətliamından qabaq Türkiyənin Ərzurum əyaləti yaxınlarında - Taşlıyaylada 3.000 mülki türkü qətlə yetirən 7.000 erməni əsgərini müxtəlif cəbhələrdən Bakıya gətirmişdilər. Bundan başqa, məhz S.Şaumyanın rəhbərliyi və təşkilatçılığı ilə "Qızıl Qvardiya" adlı ordu da ermənilərdən ibarət idi. Qabaqcadan hazırlanan anlaşma əsasında bolşevik-erməni koalisiyonu S.Şaumyanın də ifadə etdiyi kimi savaşa hər cür hazırlaşmış, Sovet Rusiyasından ağır silahlar da alınmışdı. Beləliklə, təpədən dırnağadək silahlanmış bu vəhşi koalisiya qüvvələri bütün cəbhə boyu hücuma keçdi. Təkcə erməni əsgərləri deyil, Bakıdakı ermənipərəst qüvvələr də bu soyqırımına qoşuldular. Onlar müsəlmanların evlərinə basqınlar edir, insanları öldürür, 3-4 günlük körpələri belə xəncərlə qətlə yetirir, hamilə qadınların bətnini yırtır, körpəni çıxarıb süngüyə keçirir, formalaşmış körpənin başını kəsirdilər. Müsəlman kişi və qadının kürəyində samovar qaynadırdılar. Bu vəhşi, yırtıcı heyvan xislətindən inanılmaz dərəcədə aşağı mənəviyyatlı dəstələr keçdikləri yerdə hər cür ağlasığmaz barbarlıqlar törədirdilər. Belə vəhşiliklər İrəvandan tutmuş Azərbaycanın bütün bölgələrində törədilmişdir. İnsan sifətli yırtıcı irqçilər bu sadizm və barbarlıqla da qürurlanırdılar. Məsələn, Tuz kəndində bütöv bir hovuz kəsilmiş müsəlman başları ilə doldurmuş, sağ qalanları isə suyun üzünü örtmüş qanlı su ilə dəstəmaz almağa məcbur etmişdilər. Şamaxıda mart ayında 200 nəfər qız, gəlin, uşağın namusuna toxunub, sonra məscidə doldurub diri-diri yandırmışdılar. Qanlı aksiyada Daşnaksütyun partiyası və Erməni Milli Şurası, Bakıdakı erməni kilsəsi Bakı Sovetinin tərəfində idilər. Bu etnik təmizləmədə nəinki erməni siyasətçilərinin, erməni ziyalılarının da xisləti tam aydın oldu, belə ki, bu "mədəniyyət nümayəndələri" Bakı Soveti tərəfindən döyüşə qoşulmuşdular. Dörd gündə 40 minə yaxın türk-müsəlman, hətta erməni yaşamayan Qubada təxminən 2000 yəhudi də məhv edildi. Kütləvi qırğınların gedişində azərbaycanlılara məxsus ictimai binalar, milli rəmzlər və mədəniyyət ocaqları dağıdıldı, bu, ermənilərin törətdiyi milli-mədəni varlığın silinməsi prosesi idi. "Açıq söz", "Kaspi" qəzetlərinin redaksiyaları, fəaliyyəti ilə bütün Şimali Qafqazda, Azərbaycan türklərinin ictimai həyatında mühüm rol oynayan, maddi və mənəvi köməyilə ictimaiyyətdə məşhur olan Müsəlman Xeyriyyə Cəmiyyətinin yerləşdiyi "İsmailiyyə" binası yandırıldı, məscidlər top atəşinə tutuldu, Təzəpir məscidinin minarələri ağır zədə aldı. Aprelin 2-də gecə yarıyadək davam edən bu soyqırımında on minlərlə azərbaycanlı öldürüldü. Erməni-bolşevik cəlladları heç kimə, hətta uşaqlara, qocalara belə aman vermirdilər. Saç-saça bağlanan türk qadınları çılpaq şəkildə küçələrdə gəzdirilirdi. Bu, ermənilərin iyrənc, alçaq, barbar xislətlərinin aşkar nümayişi idi. Şamaxı, Quba, Xaçmaz, Hacıqabul və Salyanda da hərbi cinayətlər törədildi. Bakıda qətlə yetirilənlərin sayı haqda müxtəlif rəqəmlər deyilir. Amma deyilən bütün saylar mart qırğınının nə qədər dəhşətli, acımasız, geniş məkanda qətliam olduğunu çox aydın təsdiq edir. Dəlil kimi, deyək ki, ingilis arxivlərini öyrənən türk tarixçisi Salahi Sonyel 1918-ci ilin martında 8-12 min, ABŞ tarixçiləri C. və K.Makkartilər isə 1918-ci il martın 30-dan aprelin 1-dək Bakıda ermənilərin 8 mindən 12 minədək müsəlmanı öldürdüyünü və şəhərin türk əhalisinin yarısının didərgin düşdüyünü yazırlar. Bəzi mənbələrə görə, həmin vaxt 60 min Azərbaycan türkü qaçqına çevrilmişdi. Bu proses ermənilərin tarixin ən mühüm dönəmlərində yaranan şəraitdən, böyük siyasi qüvvələrin maraqlarından sui-istifadə edərək öz mənafelərini necə qeyri-insani üsullarla və bütün beynəlxalq hüquq normalarını tapdalayaraq reallaşdırmağa çalışdıqlarını aydın göstərir. İngilis Peter Hopkirk "Bitməyən oyun" adlı əsərində bu regionda baş verən siyasi oyunlara aydınlıq gətirir və yazır ki, ingilislər alman və türklərin Hindistana gedən yolunu kəsmək, ruslar zəngin Bakı neftinə sahib çıxmaq, ermənilər isə zəngin Azərbaycan torpaqlarına sahib olmaq istəyirdilər. İstər 1905-ci il, istər 1918-ci il, istərsə də 1988-ci illərdə ermənilərin törətdiyi soyqırımları dünya düzəninin dəyişməsi vaxtlarına təsadüf edir. Biz bir xalq olaraq bu tarixi həqiqətləri, ermənilərin bu gün də davam edən torpaq iddialarını, irqçi, milli eqoist, neofaşist təbliğatlarını, ermənilik xislətlərini, dezinformasiyalarını ifşa etməsək faciə yenidən törənə bilər. Biz hər an yadda saxlamalıyıq ki, həmin 1918-ci ildə minlərlə günahsız dinc, mülki əhalini yalnız müsəlman və türk olduqlarına görə məhv etmiş erməni Dro və Njdeyə, Qarabağ müharibəsində məhv edilmiş erməni beynəlxalq terrorçusu Monte Melkonyana və başqalarına Ermənistanda heykəl qoyulmuş, dərsliklərə salınmış, onlardan film çəkilmişdir.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 31 Mart soyqırımına hüquqi-siyasi qiymət verilib. Bu kütləvi və amansız qırğın aktı erməni qəsbkarlarının Azərbaycan xalqının varlığını, dövlətçiliyini, dövlət müstəqilliyi uğrunda mücadiləsini, ərazi bütövlüyünü hədəf almış məqsədyönlü irticaçı siyasətinin növbəti qanlı səhifəsi olmaqla, həm də bütün insanlığa qarşı cinayətdir və bəşər tarixində insanlığa qara ləkədir. Ümummilli lider Heydər Əliyev 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanla hər il 1918-ci il martın 31-i ermənilərin törətdiyi həmin kütləvi qırğınlar "Azərbaycanlıların Soyqırımı Günü" kimi qeyd olunur. 31 Mart soyqırımının 100 illiyi ilə bağlı Prezidenti İlham Əliyevin imzaladığı Sərəncamda isə ötən illər ərzində aparılmış araşdırmalar sayəsində çoxlu sayda yeni faktlar və sənədlər toplanması, Quba şəhərində kütləvi məzarlıq aşkar olunması nəticəsində soyqırım qurbanlarının daha çox, coğrafiyasının daha geniş olduğunun təsdiqi davamlı tədqiqata ehtiyac olduğu, bu barədə dünya ictimaiyyətinə sənəd və faktlarla məlumat verilməsi, 100 illiklə əlaqədar tədbirlərin keçirilməsi və Azərbaycan Respublikasının Milli Məclisinə soyqırımın 100 illiyi ilə bağlı xüsusi iclasın keçirilməsi tövsiyə edilməsi qərara alınmışdır. Vurğulamaq lazımdır ki, bu fərman qan yaddaşımıza yazılacaq bütün bu hadisələri aşkara çıxarmaq və nəsildən-nəslə ötürmək, xalqımızın varlığının pasportu olan tariximizi yaşatmaq üçün mühüm əhəmiyyətə malikdir.

**Ataş CƏBRAYILOV,**
**"Respublika".**

# Azərbaycanlıların soyqırımının 100 illiyi ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı

1918-ci ilin mart-aprel aylarında Bakı Sovetinin mandatı altında fəaliyyət göstərən daşnak-bolşevik silahlı dəstələri tərəfindən Azərbaycan xalqına qarşı xüsusi qəddarlıqla törədilmiş soyqırımı cinayətlərindən 100 il keçir. O dövrdə Bakı şəhərində, eləcə də Bakı quberniyasına daxil olan digər şəhər və qəzalarda on minlərlə dinc sakinin etnik və dini mənsubiyyətinə görə məhv edilməsi, yaşayış məntəqələrinin dağıdılması, mədəniyyət abidələrinin, məscidlərin və digər ibadət yerlərinin, qəbiristanlıqların yerlə-yeksan edilməsi "böyük Ermənistan" xülyası naminə erməni şovinistlərinin xalqımıza qarşı mərhələ-mərhələ həyata keçirdikləri etnik təmizləmə siyasətinin ən qanlı səhifələrindən birini təşkil etmişdir.

Bakı quberniyasında başlanan kütləvi qətllər və talanlar daha sonra Qarabağda, Zəngəzurda, Naxçıvanda, İrəvanda, Göyçədə və digər bölgələrdə davam etdirilmişdir. Yüz minlərlə azərbaycanlı erməni şovinistlərinin vəhşilik əməllərinin qurbanı olmuşdur. Təkcə 1918-ci ilin mart-iyul aylarında Bakıda, Şamaxıda, Qubada, Muğanda, Lənkəranda, Göyçayda erməni mütəşəkkil silahlı dəstələri 50 mindən çox azərbaycanlını qətlə yetirmişlər. Şamaxı qəzasının 110 kəndi, Quba qəzasının 167 kəndi, Qarabağın 150-dən çox kəndi, Zəngəzur qəzasının 115 kəndi, Qars vilayətinin 98 kəndi dağıdılmış, yandırılmış və talan edilmiş, dinc əhaliyə cinsinə və yaşına fərq qoyulmadan qəddarcasına divan tutulmuşdur. Azərbaycanın tarixi torpaqlarına daxil olan İrəvan şəhərində və onun ətrafında 199 kənd yerlə-yeksan edilmiş, 132 min azərbaycanlı məhv edilmişdir.

Qeyd etmək lazımdır ki, 1918-ci ilin qanlı hadisələri zamanı Gəncədə, Qubada və Azərbaycanın digər bölgələrində türk-müsəlman əhali ilə birlikdə, 3 minə qədər yəhudi də erməni quldur dəstələri tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir.

Məlum olduğu kimi, çar Rusiyasının süqutundan sonra 1918-ci ilin mayında Cənubi Qafqaz ərazisində üç müstəqil dövlətin - Gürcüstan, Azərbaycan və Ermənistan respublikalarının yaradılması elan edilmişdi. Yaradıldığı ilk gündən Ermənistan (Ararat) Respublikası qonşularına qarşı əsassız ərazi iddiaları irəli sürməyə başladı. Ermənistan hökumətinin göstərişi ilə hərəkət edən silahlı quldur dəstələri azərbaycanlıların yaşadıqları ərazilərdə dinc əhaliyə qarşı dəhşətli soyqırımı aktları törədir, yerli əhalini yaşadıqları yerlərdən zorla qovub çıxarırdılar.

Azərbaycan hökuməti Ermənistanın əsassız iddiaları ilə bağlı mübahisəli məsələləri danışıqlar yolu ilə nizama salmağı təklif edirdi. Ermənilərin siyasi mərkəzi kimi nəzərdə tutulan Gümrü şəhəri hələ onların nəzarətindən kənarda olduğuna görə Ermənistan hökuməti İrəvanın paytaxt kimi istifadə edilmək üçün ona verilməsi xahişi ilə Azərbaycan Milli Şurasına müraciət etmişdi. Azərbaycan Milli Şurası 1918-ci il 29 may tarixli iclasında İrəvan şəhərinin və onun ətrafındakı ərazilərin Ermənistan Respublikasına verilməsi məsələsinə baxaraq bu barədə qərar qəbul etmişdi.

Həmin qərarı qəbul edərkən Milli Şuranın üzvləri Ermənistan Respublikasının digər Azərbaycan torpaqları barədə iddialardan əl çəkəcəyi, Ermənistan hökumətindən dəstək alan quldur dəstələrinin dinc azərbaycanlılara qarşı törətdikləri qırğınlara son qoyulacağı, yerli azərbaycanlı əhalinin təhlükəsizliyinin təmin ediləcəyi və doğma yurd-yuvalarından didərgin salınmış azərbaycanlıların əvvəlki yaşayış yerlərinə qayıtmasına şərait yaradılacağı barədə Ermənistan hökumətinin öz üzərinə öhdəlik götürdüyünə əsaslanmışdılar.

Təəssüf ki, Azərbaycan tərəfinin bu xoşməramlı addımı da Ermənistan Respublikasının rəvac verdiyi dövlət terrorizmi və soyqırımı aktlarının qarşısını ala bilmədi. Əzəli Azərbaycan torpaqlarında demoqrafik vəziyyəti erməni əhalinin xeyrinə dəyişdirmək üçün törədilən kütləvi qırğınlar və talanlar daha da genişləndirildi. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, 1918-ci ilin yay və payızında Zəngəzur qəzasında 115 kənd məhv edildi, 10 minə qədər azərbaycanlı öldürüldü, 50 min nəfər yurd-yuvasından didərgin salındı. Məlum faktdır ki, erməni cəza dəstələrinin vəhşilikləri nəticəsində ovaxtkı İrəvan quberniyası ərazisində yaşayan azərbaycanlı əhalinin sayı 1916-cı ildəki 375 min nəfərdən 1922-ci ildə cəmi 70 min nəfərə enmişdi.

Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası 1918-ci ilin iyul ayında azərbaycanlılara qarşı soyqırımı cinayətlərinin araşdırılması məqsədilə Fövqəladə Təhqiqat Komissiyası yaratmışdı. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırmışdı. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi.

Sovetlər Birliyinin mövcudluğu dövründə erməni şovinistlərinin Azərbaycan xalqına qarşı soyqırımı cinayətlərini ört-basdır etmək və unutdurmaq, tarixi reallıqları saxtalaşdırmaq üçün planlı tədbirlər həyata keçirilmişdir. Yalnız SSRİ-nin dağılmasından və Azərbaycan Respublikasının müstəqilliyinin bərpasından sonra tarixi həqiqətlərin üzə çıxması üçün əlverişli şərait yaranmışdır.

Bu istiqamətdə ilk qanunvericilik təşəbbüsü Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən irəli sürülmüşdür. Onun dövlət başçısı kimi 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərman tariximizin bu qaranlıq səhifələrinə işıq salan ilk rəsmi sənəd olmuşdur. Bu mühüm sənəddə Azərbaycanın XIX əsrdə zorakılıqla parçalanmasından sonra azərbaycanlılara qarşı bəşər tarixində görünməyən vəhşiliklərlə həyata keçirilmiş kütləvi qırğınların - soyqırımlarının ilk dəfə rəsmən adı çəkilmiş, erməni şovinist dairələri və onları dəstəkləyən böyük dövlətlər tərəfindən Cənubi Qafqaz miqyasında azərbaycanlı əhaliyə qarşı aparılmış etnik düşmənçilik siyasətinin kökləri açılmış, "böyük Ermənistan" xülyasını həyata keçirməyin əsas və real yolunu tarixboyu bu ərazilərin yerli sakinləri olmuş azərbaycanlıların məhv edilməsində, köçürülməsində, onların tarix və mədəniyyət abidələrinin dağıdılmasında, yer adlarının dəyişdirilməsində görmüş antiazərbaycan qüvvələrin mənfur əməllərinə siyasi qiymət verilmişdir. Fərmana əsasən, 31 mart günü son yüz ildən artıq dövrdə erməni millətçilərinin xalqımıza qarşı törətdikləri vəhşiliklərin qurbanı olmuş günahsız insanların xatirəsinə ehtiram əlaməti olaraq Azərbaycanlıların Soyqırımı Günü elan edilmişdir.

Məlum olduğu kimi, XVIII əsrin birinci yarısınadək Səfəvi və Əfşarlar dövlətlərinin mühüm tərkib hissəsi olan Azərbaycan həmin əsrin ortalarından xırda dövlətlərə - xanlıqlara parçalanmışdı. Bu xanlıqlar siyasi, iqtisadi və hərbi baxımdan son dərəcə zəif olduqlarına görə Cənubi Qafqazı ilhaq etməyə çalışan çar Rusiyasının öz işğalçılıq siyasətini həyata keçirməsi üçün əlverişli hədəf halına gəlmişdilər.

XIX əsrin əvvəllərində Rusiya ilə İran arasında uzun sürən müharibələr nəticəsində Araz çayından şimalda yerləşən Azərbaycan xanlıqları mərhələ-mərhələ Rusiya imperiyasının tərkibinə qatılmışdır. Rusiya ilə İran arasında 1806-1813-cü illərin müharibəsinə yekun vuran Gülüstan sülh müqaviləsinə əsasən, Gəncə, Qarabağ, Şəki, Şirvan, Bakı, Quba, Dərbənd, Lənkəran xanlıqları və digər ərazilər Rusiyaya ilhaq olunmuşdur.

Həmin müqavilənin şərtlərinə görə, çar Rusiyası Azərbaycanda möhkəmlənsə də, regiona tam nəzarət edə bilmirdi. Şimali Azərbaycanın bütünlüklə işğal edilməsi zərurəti İrəvan və Naxçıvan xanlıqlarının da zəbt olunmasını tələb edirdi. 1826-1828-ci illərin Rusiya-İran müharibəsindən sonra bağlanmış Türkmənçay müqaviləsinə əsasən, İrəvan və Naxçıvan xanlıqları da bütünlüklə Rusiya imperiyasının ərazisinə qatılmışdır.

Təsadüfi deyildir ki, müqavilənin imzalanmasından cəmi bir ay sonra Rusiya çarı I Nikolay İrəvan və Naxçıvan xanlıqlarının yerində yeni inzibati ərazi vahidi yaradılması və onun "Erməni vilayəti" adlandırılması haqqında fərman imzalamışdır. Qeyd edilməlidir ki, İrəvan xanlığı Ağrı düzənliyi, Dərələyəz və Göyçə gölü arasındakı torpaqlarda yerləşirdi və onun əhalisinin böyük əksəriyyətini azərbaycanlılar təşkil edirdi.

1840-cı ildə çar Rusiyasında aparılmış yeni ərazi islahatları nəticəsində "Erməni vilayəti" ləğv edilmiş, onun əvəzinə İrəvan qəzası yaradılmışdır. Doqquz il sonra İrəvan, Aleksandropol, Naxçıvan, Ordubad və Yeni Bəyazid qəzalarından ibarət İrəvan quberniyası təşkil edilmiş və bu inzibati ərazi bölgüsü 1917-ci ilə qədər dəyişməz qalmışdır.

Cənubi Qafqazda aparılan müstəmləkəçilik siyasətinin tərkib hissələrindən birini bölgənin demoqrafik vəziyyətinin dəyişdirilməsi təşkil edirdi. İşğal olunmuş ərazilərdə öz dayaqlarını möhkəmləndirmək üçün çar Rusiyası İrandan və Osmanlı imperiyasından xristian ermənilərin Cənubi Qafqaza köçürülməsinə dair irimiqyaslı və uzunmüddətli planın həyata keçirilməsinə başlamışdı. Türkmənçay müqaviləsinə İranda yaşayan ermənilərin işğal olunmuş Azərbaycan torpaqlarına kütləvi surətdə köçürülməsi barədə ayrıca bir maddənin daxil edilməsi çar hökumətinin bu məsələyə nə qədər ciddi əhəmiyyət verdiyinə dəlalət edir. Təkcə 1829-1831-ci illərdə keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisinə İrandan 40 minə yaxın erməni köçürülmüşdür.

1828-1829-cu illərin Rusiya-Türkiyə müharibəsi nəticəsində imzalanmış Ədirnə müqaviləsinin 13-cü maddəsinə əsasən, 1831-ci ilin aprel ayınadək Ərzurumdan, Ərdəhandan, Qarsdan, Bəyaziddən və Osmanlı imperiyasının digər yaşayış məntəqələrindən 100 minədək erməni gətirilib Azərbaycan torpaqlarında yerləşdirilmişdir.

Ümumən XX əsrin əvvəllərinədək İrandan və Türkiyədən Şimali Azərbaycan ərazisinə 1 milyondan çox erməni köçürülmüşdür. Ermənilərin Azərbaycanda məskunlaşdırıldığı yerlərdə erməni kilsələrinin fəaliyyətinə əlverişli şərait yaradılırdı. 1836-cı ildə çar hökuməti Azərbaycan-alban kilsəsini, o cümlədən Qarabağdakı alban xristian kilsəsini erməni qriqorian kilsəsinə tabe etdi. Bundan sonra Eçmiədzin erməni kilsəsi albanların etnik-mədəni irsini, alban ədəbiyyatını və tarixini öz adına çıxaraq mənimsədi. Belə ki, alban ədəbiyyatına və tarixinə aid əsərlər köklü dəyişikliklər edilməklə, erməni dilinə tərcümə olundu, onların alban dilində yazılmış əsl nüsxələri məhv edildi. Həmin əsərlər arasında Azərbaycan tarixi üçün böyük əhəmiyyət kəsb edən "Albanların tarixi" əsəri də vardı.

Ermənilərin kütləvi surətdə köçürülməsi, yerli sakinlərlə müqayisədə onlara xüsusi hüquq və imtiyazların verilməsi azərbaycanlıların hər vasitə ilə sıxışdırılmasına gətirib çıxarmışdır. "Daşnaksütyun" və "Hnçak" kimi erməni millətçi partiyalarının fəaliyyətə başlamasından və fanatik erməni kütlələrini şovinist ideyalar ətrafında birləşdirməsindən sonra isə bu proses daha da sürətlənmişdir.

XIX əsrin sonlarından çar Rusiyasının himayəsindən istifadə edən davakar erməni millətçiləri ermənilərin məskunlaşdıqları ərazilərdə "böyük Ermənistan" yaratmaq xülyasına düşdülər. Şərqi Anadoluda və Azərbaycanda ələ keçirmək istədikləri ərazilərdən yerli sakinləri sıxışdırıb çıxarmaq üçün erməni millətçiləri etnik təmizləməni bir vasitə olaraq seçmişdilər.

Birinci rus inqilabının başlandığı 1905-ci ildə erməni mütəşəkkil silahlı dəstələri Cənubi Qafqazda ilk dəfə olaraq etnik və dini zəmində kütləvi qırğınlar törətmişlər. 1905-1906-cı illərdə onlar Bakıda, Tiflisdə, İrəvanda, Naxçıvanda, Gəncədə, Qarabağda, Zəngəzurda azərbaycanlılara kütləvi divan tutmuş, şəhər və kəndləri yandırmış, uşaqları, qadınları, qocaları misilsiz qəddarlıq və vəhşiliklə öldürmüşlər. Həmin dövrdə təkcə Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarında 75 Azərbaycan kəndi yerlə-yeksan edilmiş, ümumən İrəvan və Gəncə quberniyalarında 200-dən artıq yaşayış məntəqəsi viran edilmişdir. Erməni vəhşiliyindən sağ qurtara bilən on minlərlə azərbaycanlı doğma yurd-yuvasını tərk etməyə məcbur olmuş, bununla da Azərbaycanda tarixi artıq bir əsri ötmüş həqarətli qaçqınlıq ənənəsinin əsası qoyulmuşdur.

Erməni şovinistlərinin Azərbaycan xalqına qarşı düşmənçilik hərəkətləri çar Rusiyasında mərkəzi hakimiyyətin süqut etdiyi, keçmiş imperiyanın dərəbəyilik və anarxiya şəraitində yaşadığı 1918-ci ildə daha geniş vüsət almışdır. Bu dəfə soyqırımı daha mütəşəkkil şəkildə və daha böyük qəddarlıq və amansızlıqla həyata keçirilmişdir. Həmin dövrdə azərbaycanlılardan təmizlənən ərazilər Ermənistan Respublikasına qatılmışdır.

Ermənistanda və Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra bolşevik rejiminin əli ilə Azərbaycan torpaqlarının daha bir hissəsi, o cümlədən Qərbi Zəngəzur, Qazax qəzasının dağlıq hissəsi və Naxçıvanın bəzi kəndləri Ermənistana verilmiş, nəticədə onun ərazisi 9 min kvadratkilometrdən 29,8 min kvadratkilometrə çatdırılmışdır.

Ermənistan ərazisində qalan, ata-baba torpaqlarında elliklə yaşayan yüz minlərlə azərbaycanlıya muxtariyyət verilmədiyi halda, Azərbaycan ərazisində sayı onlardan dəfələrlə az olan ermənilər üçün qondarma "Dağlıq Qarabağ Muxtar Vilayəti" təşkil edilmişdir. Beləliklə, erməni millətçilərinin Azərbaycana qarşı gələcək ərazi iddiaları üçün yeni meydan yaradılmış, Cənubi Qafqazda baş verəcək və indiyədək davam edən yeni faciələrin əsası qoyulmuşdur.

Son yüz ildən artıq bir dövrdə erməni xalqının bir neçə nəsli milli müstəsnalıq, türk və Azərbaycan xalqlarına qarşı düşmənçilik ruhunda tərbiyə edilmişdir. Erməni "alimlərinin" səyləri ilə bölgənin tarixi saxtalaşdırılmış, ermənilərin tarixi şişirdilərək qədimləşdirilmiş, azərbaycanlılara qarşı kəskin mənəvi təcavüz kampaniyası aparılmışdır.

Erməni millətçiləri qonşu dövlətlərə, o cümlədən Azərbaycan Respublikasına qarşı ərazi iddialarına haqq qazandırmaq, bunun vasitəsi kimi seçdikləri işğalçılıq, soyqırımı və dövlət terrorizmi əməllərini pərdələmək üçün hər vasitədən istifadə edərək, guya 1915-ci ildə Osmanlı dövləti ərazisində soyqırımına məruz qaldıqları, "incidilmiş, məzlum və əzabkeş xalq" olduqları barədə uydurmaların beynəlxalq miqyasda qəbul olunmasına cəhd göstərirlər. Təəssüf ki, Azərbaycan xalqına qarşı həyata keçirilmiş real soyqırımı faktlarına göz yuman ayrı-ayrı dövlətlərin parlamentləri və hökumətləri, bəzən də beynəlxalq təşkilatlar bir sıra hallarda yalançı erməni təbliğatının təsiri altına düşərək, yaxud siyasi konyunkturaya əsaslanaraq "erməni soyqırımı" əfsanəsini müzakirə mövzusuna çevirmiş, hətta bu barədə əsassız və ədalətsiz aktlar qəbul etmişlər.

Tarixdə heç bir "erməni soyqırımının" baş vermədiyini elmi həqiqətə sadiq qalan tədqiqatçılar, o cümlədən bir sıra Qərb alimləri çoxdan sübuta yetirmişlər. "Erməni soyqırımı" haqqında uydurmalar xəstə təxəyyülün məhsulu olub real tarixi faktlara əsaslanmır. Türkiyədə Osmanlı dövrünə aid arxivlərin açılması, tədqiqatçıların, o cümlədən erməni alimlərinin XX əsrin əvvəlləri ilə bağlı tarixi sənədlərlə tanış olmağa dəvət edilməsi, lakin erməni alimlərinin sağlam elmi polemikadan imtina etməsi də "erməni soyqırımı" əfsanəsini dünyaya yayanların iç üzünü açıb göstərir.

Erməni millətçilərinin azərbaycanlılara qarşı soyqırımı cinayətlərinin cəzasız qalması, bu cinayətlərə heç bir siyasi-hüquqi qiymətin verilməməsi səbəbindən sovet hakimiyyəti dövründə də azərbaycanlılar onlara qarşı yeridilən antihumanist siyasətlə dəfələrlə üzləşmişlər. Ermənistan SSR ərazisində yaşayan azərbaycanlıların taleyi bu düşünülmüş məkrli siyasətin əyani təzahürüdür. 1948-1953-cü illərin zorakı deportasiyaları nəticəsində Ermənistan SSR-dən yarım milyona yaxın azərbaycanlı qovulmuş, onların bütün əmlakı talan edilmişdir.

1988-ci ildən Ermənistanın Azərbaycana qarşı yeni ərazi iddialarını həyata keçirmək niyyəti ilə başladığı işğalçılıq müharibəsi və etnik təmizləmə siyasəti nəticəsində Azərbaycan Respublikası ərazisinin 20 faizi, yəni Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı yeddi rayon - Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonları işğal olunmuş, Ermənistan ərazisindən və Azərbaycanın işğal edilmiş bölgəsindən 1 milyondan çox azərbaycanlı qovulub didərgin salınmış, 20 minə qədər azərbaycanlı qətlə yetirilmiş, 20 mindən çox dinc sakin yaralanmış, 50 mindən çox adam əlil olmuş, 4 mindən çox adam əsir və itkin düşmüş, girov götürülmüş, 946 şəhər, kənd və qəsəbə qarət edilmiş, dağıdılmış və yandırılmışdır. 1988-1993-cü illər ərzində Azərbaycana 820 milyard ABŞ dollarınadək məbləğdə maddi ziyan vurulmuşdur.

İşğalçılıq müharibəsinin gedişində erməni millətçiləri azərbaycanlı əhaliyə qarşı bir neçə soyqırımı cinayəti törətmişlər. Əsrin ən dəhşətli faciələrindən biri olan Xocalı soyqırımı zamanı bütöv bir iri yaşayış məntəqəsi tamamilə yox edilmiş, 613 nəfər dinc əhali, o cümlədən 63 azyaşlı uşaq, 106 qadın vəhşicəsinə öldürülmüş, 487 nəfər şikəst olmuş, 1275 sakin - qocalar, uşaqlar, qadınlar əsir götürülərək ağlasığmaz erməni qəddarlığına, təhqirlərə və həqarətə məruz qalmışlar. Bir çox ailələr bütünlüklə məhv edilmişdir. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi bu günədək məlum deyildir.

Ümumən XX əsrdə iki milyondan çox azərbaycanlı bu və ya digər şəkildə şovinist erməni dairələrinin və onların havadarlarının yürütdükləri soyqırımı siyasətinin təsirinə məruz qalmışdır. Demək olar ki, indi Azərbaycanda erməni millətçiliyinin zülmündən bu və ya digər şəkildə zərər çəkməyən ailə yoxdur.

Azərbaycan dövləti son iki yüz ildə Azərbaycan xalqına qarşı həyata keçirilən etnik düşmənçilik siyasəti haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün mümkün olan bütün vasitələrdən istifadə edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev azərbaycanlıların soyqırımı ilə əlaqədar dəfələrlə xalqa müraciət etmişdir. Dövlət başçısının Sərəncamı ilə azərbaycanlıların soyqırımının 100 illiyi ilə əlaqədar dövlət səviyyəsində tədbirlər həyata keçirilir.

Azərbaycan Respublikasının Milli Məclisi azərbaycanlılara qarşı soyqırımı cinayətlərinin cəzasız qaldığını və bu barədə beynəlxalq ictimaiyyətdə məlumatın az olduğunu nəzərə alaraq Birləşmiş Millətlər Təşkilatına, Parlamentlərarası İttifaqa, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına, Avropa Şurasına, Müstəqil Dövlətlər Birliyinə, başqa beynəlxalq təşkilatlara və dünya ölkələrinin parlamentlərinə və hökumətlərinə müraciət edir ki:

1. Erməni şovinistlərinin və onların havadarlarının azərbaycanlılara qarşı törətdikləri soyqırımı cinayətlərini tanısınlar.
2. Gələcəkdə soyqırımı cinayətlərinin cəzasız qalmasının qarşısını almaqdan ötrü təsirli beynəlxalq hüquq mexanizmləri yaradılması işini tezliklə başa çatdırsınlar.
3. Azərbaycan xalqına qarşı yeni soyqırımı cinayətlərinə yol verilməməsi üçün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və prinsipləri, xüsusən onların arasında başlıca prinsip olan dövlətlərin sərhədlərinin toxunulmazlığı və ərazi bütövlüyü prinsipi əsasında ədalətli həllinə kömək göstərsinlər.

***(Bəyanat Azərbaycan Respublikası Milli Məclisinin 2018-ci il 30 mart tarixli iclasında qəbul edilmişdir).***

# Baş prokuror Ağcabədidə vətəndaşları qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları prokurorluq orqanları tərəfindən daim diqqətdə saxlanılaraq, vətəndaşların qəbulu, onların ərizə və şikayətlərinə baxılaraq həll olunması üçün müvafiq tədbirlər görülür.**



Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, baş prokuror Zakir Qaralov martın 30-da Ağcabədi Rayon Prokurorluğunun inzibati binasında Ağcabədi, Beyləqan, Tərtər, Ağdam, Füzuli, Laçın və Xocavənd rayonlarından olan vətəndaşları qəbul edib.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qəbuldan əvvəl baş prokuror Zakir Qaralov və Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsi önünə gül dəstələri düzərək dahi şəxsiyyətin əziz xatirəsini dərin ehtiramla yad ediblər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Zakir Qaralov bölgədə yaşayan 61 vətəndaşın müraciətini dinləyib. Baş prokuror müraciətlərdə qaldırılan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb. Digər müraciətlər isə araşdırılması üçün nəzarətə götürülüb.

Vətəndaşlar bölgə sakinlərinin yerlərdə qəbuluna və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Sonra tabe prokurorların iştirakı ilə müşavirə keçirilib. Müşavirədə vətəndaş-məmur münasibətlərinin sağlam zəmində qurulması, cinayətkarlığa qarşı mübarizənin səmərəliliyinin və kəsərliliyinin artırılması, vətəndaşların müraciətlərinə obyektiv baxılması və onların qəbulu işinin düzgün təşkili, habelə aprelin 11-də keçiriləcək prezident seçkiləri zamanı seçki qanunvericiliyinin pozulması ilə əlaqədar prokurorluq orqanlarının qarşısında duran vəzifələrlə bağlı konkret tapşırıqlar verilib.

**AZƏRTAC**

# Müdafiə naziri Türkiyə Quru Qoşunları Məktəbində təhsil alan azərbaycanlı kursantlarla görüşüb

**Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov Türkiyə Quru Qoşunları Məktəbini ziyarət edib.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir məktəbin rəhbərliyi və burada təhsil alan azərbaycanlı kursantlar ilə görüşüb.

Zakir Həsənova məktəbin fəaliyyəti və buradakı təlim-tədris prosesi barədə ətraflı məlumat verilib. Nazir kursantlarımızın hazırlıq səviyyəsi ilə maraqlanıb və onlara tövsiyələrini verib.

Görüşdən məmnunluğunu ifadə edən general-polkovnik Zakir Həsənov ölkələrimizdə ordu quruculuğu prosesində hərbi təhsil ocaqlarının rolunu xüsusi vurğulayıb.

Sonda Azərbaycan nümayəndə heyəti kursantlarla birgə nahar edib.

**AZƏRTAC**

# Şirvan şəhərində istehsalçılara 619 ədəd pambıqçılıq texnikası verilib



**Martın 30-da "Aqrolizinq" ASC-nin Şirvan təchizat bazasında respublikada pambıqçılığın inkişaf etdirilməsi ilə əlaqədar alınan yeni kənd təsərrüfatı texnikasının sərgi-təqdimatı olub.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, tədbirdə çıxış edən nazir Heydər Əsədov aqrar sektora göstərilən dövlət dəstəyi, pambıqçılığın inkişafı məsələlərinə həsr olunmuş respublika müşavirəsində dövlətimizin başçısı tərəfindən Kənd Təsərrüfatı Nazirliyinin qarşısına qoyulmuş tapşırıq və vəzifələr, pambıqçılığın inkişafı ilə bağlı aparılan məqsədyönlü siyasət, bu sahənin inkişafı ilə əlaqədar görülən işlər, imzalanan fərman və sərəncamlar, keçirilmiş müşavirələr, qəbul olunmuş Dövlət proqramları barədə danışıb. Vurğulayıb ki, Bərdə şəhərində keçirilmiş müşavirədə ölkə rəhbərliyi tərəfindən pambıqçılıq sahəsində mövcud vəziyyət geniş təhlil olunub və bu sahənin inkişafı ilə bağlı qarşıya mühüm vəzifələr qoyulub.

Nazir qeyd edib ki, pambıqçılığın inkişafı ilə bağlı qarşıya qoyulan vəzifələr və tapşırıqlar layiqincə yerinə yetirilir, bu gün kənd təsərrüfatının yeni siması formalaşır, ölkədə kənd təsərrüfatının bütün sahələrinin inkişaf etdirilməsi üçün kifayət qədər maddi-texniki baza yaradılıb. Qarşıya qoyulan vəzifələrin icrası ilə bağlı bu gün pambıq istehsalçılarına Avropanın və dünyanın ən müasir texnika və texniki avadanlıqları, həmçinin ən yüksəkkeyfiyyətli lifli və lifsiz pambıq toxumları təqdim olunur.

Pambıqçılığın inkişafı ilə əlaqədar Prezident İlham Əliyevin qarşıya qoyduğu vəzifələrin icrası istiqamətində görülən işlərdən danışan nazir Heydər Əsədov vurğulayıb ki, 2018-ci ildə pambıqçılıqda istifadə olunan 4360 ədəd texnika, o cümlədən 100 ədəd "John Deere" 9970 markalı pambıqyığan kombayn, 700 ədəd şum və cərgəarası becərmə traktoru, 700 ədəd traktor qoşqusu və aqrotexniki becərmə işlərini yerinə yetirmək üçün 1960 ədəd müxtəlif kənd təsərrüfatı texnikası sifariş verilib. Artıq bu texnikaların bir hissəsi respublikaya gətirilib və pambıq istehsalçılarına verilib. Ümumilikdə isə 2018-ci ildə pambıqçılığın inkişaf etdirilməsi və texniki təminatını daha da gücləndirmək məqsədilə kənd təsərrüfatı texnikası alınması üçün dövlət başçısının sərəncamı ilə dövlət büdcəsindən ayrılmış 160 milyon manat vəsaitdən 4360 ədəd texnika üçün təxminən 120 milyon manat dəyərində satınalma müqaviləsi bağlanılıb.

Vurğulanıb ki, ümumiyyətlə, son dövrlərdə əhəmiyyətli dövlət dəstəyi və həyata keçirilən sistemli tədbirlər hesabına kənd təsərrüfatı istehsalçılarının müvafiq texnika və avadanlıqlarla təminatının yaxşılaşdırılması istiqamətində köklü irəliləyişə nail olunub. Pambığın becərilməsi və yığılması ilə əlaqədar "Aqrolizinq" ASC tərəfindən təkcə 2015-2017-ci illərdə 7811 ədəd kənd təsərrüfatı texnikası, o cümlədən 303 ədəd pambıqyığan kombayn, 1566 ədəd müxtəlif markalı şum və becərmə traktoru, 5942 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası alınaraq pambıq istehsalçılarına lizinqə verilib.

Bu gün isə pambıqçılıqla bağlı gətirilmiş 619 ədəd pambıqçılıq texnikası, o cümlədən 59 ədəd pambıqyığan kombaynı, 57 ədəd şum traktoru, 218 ədəd becərmə traktoru, 68 ədəd traktor qoşqusu, 52 ədəd ağır diskli mala, 13 ədəd kanal açan, 27 ədəd çiyidsəpən, 39 ədəd cərgəarası becərən kultivator, 5 ədəd çiləyici, 33 ədəd su çəni, 27 ədəd çöpdoğrayan, 21 ədəd rotasion mala pambıq istehsalçılarının istifadəsinə verilir.

Ümumilikdə, 2018-ci il üçün 5763 ədəd kənd təsərrüfatı texnikasının respublikaya gətirilməsi üçün satınalma müqaviləsi bağlanılıb. Bundan 100 ədəd pambıqyığan kombayn, 260 ədəd taxılyığan kombayn, 100 ədəd şum və becərmə traktoru, 4300 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası üçün müqavilə bağlanılıb.

Nazir vurğulayıb ki, pambıqçılıqda istifadə olunan müxtəlif çeşiddə bütün texniki avadanlıqlar qısa zamanda ölkəmizə gətirilərək pambıq istehsalçılarının istifadəsinə veriləcək.

Heydər Əsədov ən müasir standartlara cavab verən bu texnikalardan təyinatı üzrə səmərəli istifadə olunması, eyni zamanda, kənd təsərrüfatının ayrı-ayrı sahələrinin inkişafı ilə bağlı tapşırıq və tövsiyələrini bildirib.

Tədbir çərçivəsində nazir lizinq yolu ilə verilən texnikaların sənədlərini fermerlərə və torpaq istifadəçilərinə təqdim edib. Həmçinin pambığın müxtəlif sortları üzrə 230 ton lifsiz və 110 ton lifli pambıq toxumları istehsalçılara verilib.

Sonda nazir Heydər Əsədov mətbuat nümayəndələrinə müsahibə verib.

**AZƏRTAC**

# Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Qobustanda vətəndaşlarla görüşüb

**Martın 30-da nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2018-ci ilin mart ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Qobustan şəhərində görüş keçirib.**



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzülüb.

Qobustan, Şamaxı, Ağsu və İsmayıllı rayonlarının sakinlərinin iştirak etdiyi qəbulda vətəndaşların telekommunikasiya, internet, poçt xidmətləri, yol təmir-tikintisi, yeni marşrut xəttinin açılması, marşrut qrafiklərində dəyişiklik edilməsi, işə qəbul kimi məsələlərlə bağlı müraciətləri dinlənilib və əksər məsələlər yerində həllini tapıb. Bir sıra müraciətlərlə bağlı nazirliyin müvafiq qurumlarına tapşırıqlar verilib.

Bəzi vətəndaşların nazirliyin səlahiyyətlərinə aid olmayan müraciətləri isə müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

Regiona səfəri çərçivəsində Ramin Quluzadə aidiyyəti rayonların telekommunikasiya qovşaqları, poçt filialları, eləcə də, Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin regional bölmələrinin və tabeli qurumlarının rəhbərlərinin iştirakı ilə müşavirə keçirib.

Sektor üzrə mövcud durum, çatışmazlıqlar, nöqsanlar, vətəndaş şikayətləri üzrə geniş müzakirələrin aparıldığı müşavirədə həyata keçirilən islahatların vətəndaş məmnunluğu və xidmət keyfiyyətinin yüksəldilməsinə yönəldiyi diqqətə çatdırılıb.

Toplantıda nazir müvafiq sahə rəhbərlərinə hər bir vətəndaş müraciətinin operativ araşdırılması və qanunvericiliyə uyğun həll edilməsi haqqında tapşırıqlar verib.

**AZƏRTAC**

# Tarixi ədalətsizliyə siyasi-hüquqi qiymət

*Ulu öndərimiz Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" fərmana imza atdığı vaxtdan 20 il keçir. Bu fərmanın ermənilərin və onların tarixi havadarlarının yurdumuzun, yurddaşlarımızın başına gətirdikləri müsibətlərin həm ölkə, həm də beynəlxalq ictimaiyyətin mühakiməsinə çıxarılmasında rolu böyük və əhəmiyyətlidir.*

"Azərbaycanlıların soyqırımı" haqqında imzalanan Prezident fərmanı tariximizin daha bir açılmamış səhifəsinə gur işıq saldı. Hər il martın 31-ni Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd etməklə xəyalən tarixə, keçmişə qayıdır, baş verənləri yenidən ağlın süzgəcindən keçiririk.

XIX-XX əsrlərdə xalqımızın başına bir sıra faciələr gətirilib. Qonşuluğumuzda bərqərar olmuş bədnam ermənilər xalqımıza qarşı dəfələrlə soyqırımı və deportasiya siyasətini həyata keçiriblər. Ötən əsrin əvvəllərində, yəni 1905-1907-ci il birinci rus inqilabının yaratdığı tarixi şəraitdən istifadə edən ermənilər qədim Azərbaycan torpaqlarında soyqırımı və təmizləmə prosesinə başlayaraq qısa bir zamanda minlərlə azərbaycanlını öldürdülər, on minlərlə soydaşımızı təhqir və işgəncə ilə yurd-yuvasından qovdular.

Ermənilər tərəfindən azərbaycanlılara qarşı dəfələrlə soyqırımı törədilmiş - Bakı, Şamaxı, Quba qəzalarında, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və digər bölgələrdə dinc əhali qılıncdan keçirilmiş, qadınlara, uşaqlara, qocalara belə rəhm edilməmişdir. Qarət və zorakılıqlarla müşayiət olunan soyqırımı zamanı yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə-yeksan edilmiş, adamların burun-qulaqları kəsilmişdir. Günahsız əhali güllələnmiş, kütləvi qətllər törədilmişdir. Bu vəhşi aksiyalar zamanı Azərbaycana məxsus ərazilər zəbt edilmişdir.

Bu baxımdan 1918-ci ilin martında "əks-inqilabçı ünsürlərlə mübarizə" şüarı altında Bakı Kommunası tərəfindən Bakı Quberniyasının azərbaycanlılardan təmizlənməsini qarşısına məqsəd qoyan mənfur planı xüsusi qeyd etmək olar. Ən dəhşətli olaylar martın 30-31-i və aprel ayının ilk günlərində baş verdi. Bakıda 12 mindən artıq azərbaycanlı - qoca, uşaq, qadın öldürüldü. Həmin günlərdə yalnız azərbaycanlı olduğu üçün minlərlə gənc sakin məhv edilmişdir. Evlərə od vurulmuş, milli memarlıq inciləri, məktəb, xəstəxana, məscid və digər abidələr dağıdılmış, Bakının böyük bir hissəsi xarabalığa çevrilmişdir.

Analoji hadisələr Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyanda və daha ağır formada Şamaxıda təkrarlandı. Ümumilikdə bu hadisələrdə 30 minə yaxın yurddaşımız qətlə yetirildi.

Bu qanlı siyasət Sovet hakimiyyəti illərində də davam etdirildi. 1948-1953-cü illərdə artıq o zaman Ermənistan adlanan Qərbi Azərbaycan torpaqlarından 150 min soydaşımız deportasiya olundu.

"Qorbaçov yenidənqurması" adlanan dövrdə bu şərəfsiz hərəkətlər daha geniş vüsət aldı. 1988-ci ildə Dağlıq Qarabağ münaqişəsinin başlandığı ilk gündən Moskva əl altından erməni separatçılarını dəstəkləyir, bacardığı qədər onlara kömək göstərirdi. Hadisələrin başlanğıc mərhələsində Sumqayıtda əvvəlcədən düşünülüb hazırlanmış və xüsusi adamlar vasitəsilə həyata keçirilən "qırğın aksiyası" təşkil edib, onun gedişində aparılan video-foto çəkilişlərini dünyaya yayan ermənilər mənfi azərbaycanlı obrazı da formalaşdıra bilmişdir.

1988-1992-ci illərdə ermənilər ən sonuncu azərbaycanlını da öz dədə-baba yurdundan didərgin saldılar. Və beləliklə ötən əsrin əvvəllərində əhalisinin 70 faizini azərbaycanlılar təşkil edən bugünkü Ermənistanda bir nəfər də olsun soydaşımız qalmadı.

Bu yalan və iftira dolu təbliğatın qarşısı 1993-cü ildə ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra alındı. Hazırda bu siyasət möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən layiqincə həyata keçirilir. Elə ona görədir ki, indi Azərbaycan hər səviyyədə ermənilərin iftira və böhtanlarına kəsərli cavab verib, onların məxsus olduğu əsl murdar xisləti dünya ictimaiyyətinə çatdıra bilir.

Müasir mərhələdə azərbaycanlıların soyqırımı ilə bağlı baş vermiş hadisələri nəzərdən keçirərkən aydın görünür ki, xalqımız Sovet hakimiyyəti illərində beynəlmiləlçilik ruhunda tərbiyə olunduğundan ermənilərə qarşı kin-küdurəti, ədavəti yaddan çıxarmış, dəhşətli faciələr unudulmuşdur. Xalqımızın yaddaşından olmuşları silmək üçün hazırda Şəhidlər Xiyabanı adlanan ərazidə, 1918-ci ildə erməni və bolşeviklərin qırdığı azərbaycanlıların uyuduğu Çəmbərəkənd qəbiristanlığının yerində böyük bir park salınmışdır. Xalqımızın ən böyük düşməni olan Şaumyanın adını əbədiləşdirmək üçün heykəlləri ucaldılmış, adına bağlar salınmış, onlarca küçə, kitabxana bu cəlladın adını daşımışdır. 1918-ci ilin qanlı mart hadisələrini əks etdirən bədii əsərlər, qəzetlər yandırılmış, tamamilə məhv edilmişdir.

Müasir mərhələdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi baş verməsəydi, indiki gənclərimiz erməni xislətindən, tarix boyu xalqımızın başına açdıqları dəhşətli faciələrdən bəlkə də xəbərsiz olacaqdı. O cəhətdən ulu öndərimiz Heydər Əliyev "Azərbaycanlıların soyqırımı haqqında" fərmanı imzaladıqdan sonra bu sahədə böyük fəallıq hiss olunmaqdadır. Xalqımızın soyqırımı tarixinin öyrənilməsində və milli şüurun formalaşmasında bu fərmanın çox böyük əhəmiyyəti vardır. Fərmanda xalqımızın tarixində ermənilər tərəfindən həmvətənlərimizin zaman-zaman vəhşicəsinə qırılmasına, torpaqlarımızın işğalına ilk dəfə siyasi qiymət verilmiş, alimlərimiz, ziyalılarımız qarşısında mühüm vəzifələr qoyulmuşdur. Məhz bu fərman işıq üzü gördükdən sonra hər il martın 31-i Azərbaycanlıların Soyqırımı Günü kimi nəinki ölkəmizdə, soydaşlarımızın yaşadığı dünyanın hər nöqtəsində qeyd edilir.

**Gülnarə TAĞIZADƏ,**
**Sumqayıt Apelyasiya Məhkəməsinin hakimi.**

# Xarici İşlər Nazirliyi Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar bəyanat yayıb

**Xarici İşlər Nazirliyi 31 mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar bəyanat yayıb. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.**

Bəyanatda deyilir ki, 31 mart ölkəmizdə Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunaraq, 1918-ci ilin martında ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş qanlı qarğının qurbanlarının xatirəsi anılır.

"1917-ci ilin oktyabr inqilabından sonra bolşeviklər Bakıda hakimiyyəti ələ keçirdilər və Daşnaksütyun partiyası ilə müttəfiqlik şəraitində yerli vəziyyətə nəzarəti gücləndirməyə çalışdılar. Rusiya bolşeviklərinin rəhbəri Vladimir Lenin etnik erməni olan Stepan Şaumyanı Qafqazın Fövqəladə Komissarı təyin etdi.

Mart qırğınları ərəfəsində Bakı soveti və Daşnaksütyun partiyası əks-inqilabçı elementlərə qarşı mübarizə bəhanəsi altında Bakı və ətraf ərazilər boyunca azərbaycanlıları məhv etmək planını hazırladı. Stepan Şaumyanın etirafına görə, azərbaycanlılara qarşı olan qırğınlarda Bakı sovetinin 6000 və Daşnaksütyun partiyasının 4000 silahlı əsgəri iştirak edib. Martın 30-da erməni-bolşevik birləşmələri Bakı şəhərini gəmilərdən atəşə tutdular. Sonra silahlı erməni daşnaklar yalnız etnik mənsubiyyətlərinə görə azərbaycanlıların evlərinə basqın edərək onlara qarşı amansız qətliam həyata keçirdilər. Bu dövr ərzində erməni-daşnak birləşmələri Bakı şəhərində və ətrafında 20 mindən artıq günahsız insanı qətlə yetirdilər", - deyə bəyanatda qeyd olunur.

Bildirilir ki, azərbaycanlılara qarşı törədilən soyqırımı Bakı ilə məhdudlaşmadı. Qısa zaman ərzində ermənilər Şamaxı, Quba, İrəvan, Zəngəzur, Qarabağ, Naxçıvan və Qarsda da qırğınlar törətdilər. 1918-ci ilin ilk beş ayı ərzində Qubada xüsusi vəhşiliklə 16 mindən artıq insan öldürüldü, 167 kənd məhv edildi. Bu kəndlərdən 35-i yer üzündən silinib. Ermənilər, həmçinin Qubada yerli yəhudilərə qarşı qətliam törətdilər.

Vurğulanır ki, 1918-ci il mart qırğınları azərbaycanlılara qarşı irqi ayrı-seçkilik və etnik təmizləmə siyasəti əsasında əvvəlcədən hazırlanmış və qəddarcasına həyata keçirilən siyasət idi.

1918-ci ilin mart hadisələri Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra diqqət mərkəzində oldu. Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən azərbaycanlılara qarşı törədilmiş zorakılığın araşdırılması məqsədilə 1918-ci il iyulun 15-də Fövqəladə İstintaq Komissiyası yaradıldı. Bu komissiyada ruslar, yəhudilər, polyaklar, gürcülər və hətta ermənilər olmaqla müxtəlif millətlər və həmin dövrün ən yaxşı hüquqşünasları təmsil olunurdu. Sübutlar əsasında Fövqəladə İstintaq Komissiyası 128 hesabat və layihə hazırlayaraq, dinc əhaliyə qarşı müxtəlif cinayətlərə görə təqsirləndirilən 194 nəfər barəsində cinayət işi qaldırmışdır. Beləliklə, avqustun ortalarına qədər törətdikləri cinayətlərə görə Bakıda 24 və Şamaxıda təxminən 100 nəfər həbs olundu. Bu, azərbaycanlılara qarşı törədilmiş soyqırımı siyasətinin siyasi və hüquqi qiymətləndirməsi üçün atılan ilk addım idi. Amma Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işi tamamlamağa imkan vermədi.

Azərbaycan Respublikası 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra 1918-ci ilin mart soyqırımının siyasi qiymətləndirilməsinə davam etdi və Azərbaycan Xalq Cümhuriyyətinin ədalətin bərpası üçün göstərdiyi səyləri başa çatdırmağı qərara aldı. Faciənin 80-ci ildönümü ərəfəsində ümummilli lider Heydər Əliyev 31 mart tarixinin matəm günü elan edilməsi barədə Fərman imzaladı. Fərman XX əsrin əvvəllərində azərbaycanlılara qarşı törədilmiş soyqırımı aktlarının siyasi və hüquqi qiymətləndirməsinin aparılması üçün əsas sənəd oldu.

Azərbaycanlıların Soyqırımı Gününün yad edilməsi keçmişdə və hazırda azərbaycanlıların qırğın və etnik təmizləmələrə məruz qalmaları barədə dünya ictimaiyyətinin məlumatlandırılmasında mühüm rol oynayır.

Sonda bəyanatda vurğulanır: "1980-ci illərin sonlarından başlayaraq, Ermənistan Azərbaycana qarşı müharibəyə başlayaraq və ölkəmizin ərazilərini işğal edərək, Ermənistanda və Azərbaycanın işğal olunmuş ərazilərində milyonlarla azərbaycanlının etnik təmizləməsini həyata keçirərək, çoxsaylı hərbi cinayətlər, insanlığa qarşı cinayət, eləcə də 1992-ci ilin fevralında Xocalı soyqırımı da daxil olmaqla soyqırımı aktları törədərək mart qırğınını xatırladan siyasəti davam etdirir.

Mart qırğınının 100 illiyini yad edərək və günahsız qurbanlarının xatirəsini anaraq, Ermənistanın Azərbaycan xalqına qarşı soyqırımı, bəşəriyyət əleyhinə cinayət, irqi ayrı-seçkilik və etnik təmizləməyə əsaslanan məqsədyönlü və davam edən siyasətini kəskin şəkildə pisləyir və bu qəbildən olan qeyri-insani cinayətlərin qarşısının alınması üçün Ermənistanın cəzasızlığına son qoyulmasının vacibliyini bir daha vurğulayırıq".

**AZƏRTAC**

## Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2018-ci ilin aprel ayında şəhər və rayonlarda vətəndaşların qəbulu

## CƏDVƏLİ

| Mərkəzi icra hakimiyyəti orqanı | Qəbul günü | Qəbulun keçirildiyi şəhər | Əhatə olunan şəhər və rayonlar |
|---|---|---|---|
| **Hicran Hüseynova** **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** | 16 | Daşkəsən | Daşkəsən, Gədəbəy, Şəmkir, Tovuz, Ağstafa, Qazax |
| **Arzu Rəhimov** **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** | 19 | Samux | Samux, Gəncə, Mingəçevir, Naftalan, Göygöl, Daşkəsən, Goranboy |
| **Zakir Qaralov** **Baş prokuror** | 20 | Samux | Samux, Gəncə, Göygöl, Daşkəsən, Goranboy, Xocalı, Kəlbəcər |
| **Səlim Müslümov** **əmək və əhalinin sosial müdafiəsi naziri** | 20 | Mingəçevir | Mingəçevir, Naftalan, Yevlax, Ağdaş, Goranboy |
| **Şahin Mustafayev** **iqtisadiyyat naziri** | 20 | Göygöl | Göygöl, Gəncə, Daşkəsən |
| **Əbülfəs Qarayev** **mədəniyyət və turizm naziri** | 20 | Salyan | Salyan, Neftçala, Biləsuvar, Cəbrayıl |
| **Ramin Quluzadə** **nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri** | 20 | Ağdaş | Ağdaş, Mingəçevir, Kürdəmir, Ucar, Göyçay |
| **Oqtay Şirəliyev** **səhiyyə naziri** | 20 | Sabirabad | Sabirabad, Şirvan, Hacıqabul, Saatlı |
| **Məleykə Abbaszadə** **Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin Direktorlar Şurasının sədri** | 20 | İsmayıllı | İsmayıllı, Qəbələ, Şamaxı, Qobustan |
| **Azad Rəhimov** **gənclər və idman naziri** | 23 | Qəbələ | Qəbələ, Şəki, Oğuz, İsmayıllı, Qax, Zaqatala, Balakən |
| **Mübariz Qurbanlı** **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** | 24 | İsmayıllı | İsmayıllı, Şamaxı, Ağsu, Qobustan |
| **Hüseynqulu Bağırov** **ekologiya və təbii sərvətlər naziri** | 26 | Bərdə | Bərdə, Ağdam, Ağcabədi, Tərtər |
| **Fikrət Məmmədov** **ədliyyə naziri** | 26 | Salyan | Salyan, Neftçala, Hacıqabul |
| **Kəmaləddin Heydərov** **fövqəladə hallar naziri** | 27 | Ağstafa | Ağstafa, Qazax, Tovuz, Şəmkir |
| **Heydər Əsədov** **kənd təsərrüfatı naziri** | 27 | Yevlax | Yevlax, Goranboy, Göygöl, Daşkəsən, Samux |
| **Aydın Əliyev** **Dövlət Gömrük Komitəsinin sədri** | 27 | Tovuz | Tovuz, Şəmkir, Gədəbəy, Ağstafa, Qazax |
| **Kərəm Həsənov** **Əmlak Məsələləri Dövlət Komitəsinin sədri** | 27 | Cəlilabad | Cəlilabad, Biləsuvar, Masallı, Yardımlı |
| **Ramil Usubov** **daxili işlər naziri** | 28 | Göyçay | Göyçay, Mingəçevir, Yevlax, Ağsu, Şamaxı, İsmayıllı, Ucar, Kürdəmir, Ağdaş |
| **Mikayıl Cabbarov** **vergilər naziri** | 28 | Şamaxı | Şamaxı, Ağsu, Qobustan |

**Qeyd:** *Vətəndaşların qaldırdıqları məsələlər qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanının səlahiyyətlərinə aid olmalıdır.*

## MSK 1000 seçki məntəqəsində veb-kamera quraşdırılmasına qərar verib

**Martın 30-da Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.**

MSK Katibliyinin media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Komissiyanın 2018-ci il 24 mart tarixli iclasının protokolu təsdiq edilib.

Sonra cari ildə keçiriləcək Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar seçki günü seçki məntəqələrində proseslərin əvvəldən axıradək, fasiləsiz və arasıkəsilmədən izlənilməsi məqsədilə, işğal edilmiş ərazilər istisna olmaqla, respublika ərazisinin tam əhatə olunması prinsipi əsas götürülərək, 119 seçki dairəsi üzrə 1000 (min) seçki məntəqəsində veb-kameraların quraşdırılmasına qərar verilib.

MSK Azərbaycan Respublikası Prezidenti seçkilərində Azərbaycan Demokrat Partiyası tərəfindən təqdim olunan vəkil edilmiş şəxsləri də qeydə alıb.

Beynəlxalq müşahidə missiyalarının və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirak etdikləri iclasda cari məsələlərə də baxılıb.

**AZƏRTAC**

## Seçki əhval-ruhiyyəsi yüksəkdir

**Respublikamızın hər yerində olduğu kimi, Xaçmazda da bu günlər yüksək seçki əhval-ruhiyyəsi hökm sürür. Şəhərin hər yerində seçkilərə dair təşviqat nümunələri gözə dəyir.**

55 saylı Xaçmaz Seçki Dairəsindəyik. Həmişə iş başında olan komissiyanın üzvləri tez-tez məntəqələrlə əlaqə saxlayır, vəziyyəti öyrənir, lazımi tapşırıq və tövsiyələrini verirlər. **Dairə Seçki komissiyasının sədri Bəhram Ömərov** hazırlıq işləri barədə məlumat verərək deyir: "Seçkiyə hazırlıq işlərini artıq başa çatdırmışıq. 43 min 980 nəfər seçicini əhatə edən 42 seçki məntəqəsi 11 aprel gününə tam hazırdır. 12 məntəqədə veb-kamera quraşdırılıb. Bütün məntəqələr fasiləsiz elektrik enerjisi və rabitə sistemi ilə təmin olunub. Dairədə 347 nəfər müşahidəçi, 56 nəfər məşvərətçi səs hüququna malik komissiya üzvü qeydiyyatdan keçmişdir. Məntəqələrin yaxınlığında təşviqat lövhəsi qoyulmuş, hər bir namizəd üçün lövhədə bərabər qaydada yer ayrılmışdır. Hazırda yerlərdə prezidentliyə namizədlərin seçkiqabağı kompaniyası davam edir. Həm dairənin, həm də bütün məntəqə seçki komissiyalarının üzvləri seçkilərə hazırlıqla bağlı Mərkəzi Seçki Komissiyası tərəfindən vaxtında lazımi qaydada maarifləndirilmiş, peşəkarlıqları artırılmışdır". Dairənin əhatə etdiyi bir neçə seçki məntəqəsinə baş çəkdik. 3 saylı seçki məntəqəsi şəhərin görkəmli yerində - Heydər Əliyev Mərkəzində yerləşir. Məntəqəyə seçkiyə uyğun surətdə tərtibat verilmiş, komissiya üzvləri üçün rahat iş şəraiti yaradılmışdır. Arakəsmələr, seçki qutuları, stolüstü seçici siyahıları, müşahidəçilər stolu tam hazırdır. Komissiyanın sədri Bəhrəm Şahverdiyev deyir ki, məntəqəmiz 1180 nəfər seçicini əhatə edir. 4 nəfər seçici ilk dəfə səs verəcəkdir. Yeri gəlmişkən deyim ki, komissiyanın üzvləri bir neçə seçki təcrübəsi olan işgüzar yoldaşlardır. Tələbələrə və digər yerini dəyişən seçicilərə qeydiyyatdan çıxma vərəqələrini veririk. Bildiriş vərəqələrini yazıb başa çatdırmışıq. Tam əminliklə deyə bilərəm ki, məntəqəmizdə seçki şəffaf, qanuna uyğun keçiriləcək, seçicilər öz iradəsini azad və demokratik şəkildə ifadə edə biləcəklər.

1, 2, 10, 11 nömrəli seçki məntəqələrində də seçkilərə nümunəvi hazırlıq görüldüyünün şahidi olduq.

**Ziyafəddin BAYRAMOV,**
**"Respublika".**




### ❑ ƏRDOĞAN FRANSA PREZİDENTİNƏ SƏRT REAKSİYA GÖSTƏRDİ



Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Fransa prezidenti Emmanuel Makronun Suriya Demokratik Qüvvələrinin (SDQ) nümayəndə heyətini qəbul etməsinə sərt reaksiya verib. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

Ərdoğan Ədalət və İnkişaf Partiyasının vilayət təşkilatlarının rəhbərləri ilə görüşü zamanı bildirib ki, terror təşkilatını yüksək səviyyədə qonaq kimi qəbul edənlər bunun Türkiyəyə qarşı düşmənçilik mənası daşıdığını bilməlidirlər.

Türkiyə prezidenti deyib: "Ey Qərb! Sizin SDQ dediyiniz Suriya Demokratik Qüvvələri PKK terror təşkilatının aynasıdır. Guya onlar PKK deyilmiş. Bununla bizi aldatmağa çalışırsınız, halbuki biz onların hamısının təməlini bilirik. Hamısının kimliyi, ünvanları bizdə var. Deyirlər YPG-yə dəstək təminatı verdik. Sözə bax. Türkiyə ilə SDQ arasında vasitəçilik edə biləcəklərinə dair yayılan xəbər əgər doğrudursa, bunu söyləyən şəxsin həddini və boyunu aşan bir sözdür bu. Bizim vasitəçiyə ehtiyacımız yoxdur. Türkiyə nə zamandan bəri terror təşkilatları ilə bir masaya oturub? Bunu haradan çıxarırsınız? Siz terror təşkilatı ilə masaya otura bilərsiniz, amma Türkiyə terror təşkilatları ilə Afrində olduğu kimi mübarizə aparır. Siz kimsiniz ki, bir terror təşkilatı ilə Türkiyə arasında vasitəçilik ifadəsini səsləndirirsiniz? Bunların dostu YPG bölgəmizdəki ən əliqanlı, ən əxlaqsız, insanlıq düşməni terrorçu təşkilatdır. Bu hərəkətindən sonra Fransanın heç bir terrorçudan, terror aksiyasından şikayət etməyə haqqı qalmayıb. Terrorçularla əlaqədə olan, hətta onları saraylarda qonaq edənlər səhvlərini tez-gec anlayacaqlar. Suriyada canını qurtaran terrorçular ora doluşduqda ümid edirik ki, bizdən yardım istəməzlər".

Qeyd edək ki, Suriya Demokratik Qüvvələrinin tərkibində PKK terror təşkilatının Suriya qolu olan YPG də təmsil olunur.

Eyni zamanda, Rəcəb Tayyib Ərdoğan Türkiyə Silahlı Qüvvələri tərəfindən Suriyanın Afrin bölgəsindəki "Zeytun budağı" əməliyyatının uğurlu şəkildə aparılmaqda davam etdiyini bildirərək, zərərsizləşdirilən terrorçu sayının 3800 nəfər olduğunu bəyan edib.

Ərdoğan Suriya ilə bağlı olaraq qeyd edib ki, Afrin şəhər mərkəzinə nəzarətin ələ keçirilməsilə əməliyyatın hədəfləri böyük miqyasda reallaşıb. Prezidentin sözlərinə görə, hazırda Tel Rıfat başda olmaqla bölgəyə nəzarətin ələ keçirilməsi üçün əməliyyatı davam etdiririk.

### ❑ RUSİYA BƏZİ DÖVLƏTLƏRİN DİPLOMATLARINI ÖLKƏDƏN ÇIXARIR



Rusiya Xarici İşlər Nazirliyi bir neçə ölkənin bəzi diplomatlarının ölkədən çıxarılması barədə qərar qəbul edib. "APA"nın Rusiya mətbuatına istinadən verdiyi xəbərə görə, Rusiya 4 polşalı diplomatın aprelin 7-nə kimi ölkədən çıxarılmasını tələb edib. Bununla yanaşı, 3 litvalı, 2 italiyalı, 1 finlandiyalı, 1 latviyalı dilomatın, habelə Niderland diplomatik missiyasının 2 əməkdaşının və Estoniyanın hərbi attaşesi Toomas Pedanın da aprelin 7-dək ölkədən çıxarılacağını bəyan edib.

Eyni zamanda, rəsmi Moskva Böyük Britaniyadan Rusiyadakı səfirlik və baş konsulluqlarda çalışan işçilərin sayının azaldılmasını tələb edib. Məlumata görə, bu tələb Böyük Britaniyanın martın 30-da Rusiya XİN-ə çağırılmış səfiri Lori Bristouya çatdırılıb. Bunun üçün Britaniya hökumətinə bir ay vaxt verilib. Tələbə görə, Britaniya hökuməti Moskvadakı səfirlik və Rusiyadakı digər konsulluqlarda işçilərinin sayını Rusiyanın Böyük Britaniyada yerləşən diplomatlarının və uzunmüddətli ezamiyyətdə olan inzibati-texniki işçilərinin sayına uyğunlaşdırsın. Həmçinin Britaniya hökumətinin rusiyalı diplomatların bir sıra ölkələrdən çıxarılmasına səbəb olan hərəkətinə qəti etiraz bildirilib. Qeyd olunub ki, Rusiya həqiqətin üzə çıxması və Skripalın zəhərlənməsində əli olan insanların aşkarlanması istiqamətində əməkdaşlığa hazırdır.

Bununla yanaşı, xəbər verilir ki, Rusiya 60 ABŞ diplomatını ölkədən çıxarmaq qərarına gəlib və onlara aprelin 5-dək ölkə ərazisini tərk etmələrinə vaxt verib. Ölkədən çıxarılan diplomatlardan 58-nin ABŞ-ın Moskvadakı səfirliyinin əməkdaşı, 2 nəfərin isə Yekaterinburqdakı baş konsulluğunun işçisi olduğu bildirilir.

Həmçinin bildirilir ki, Rusiya ABŞ-ın "Skripal işi" ilə əlaqədar atdığı addımlara cavab olaraq, bu ölkənin Sankt-Peterburqdakı baş konsulluğunu bağlayır. Bu barədə Rusiya XİN-in rəhbəri Sergey Lavrov bildirib.

### ❑ SKRİPALIN QIZININ SƏHHƏTİ YAXŞILAŞIB



Böyük Britaniyanın Solsberi şəhərində zəhərlənən rus polkovnikinin qızı Yuliya Skripal uzun sürən müalicədən sonra özünə gəlib və danışmağa başlayıb. "APA"-nın məlumatına görə, bu barədə "BBC" agentliyinə Solsberi xəstəxanasındakı mənbədən bildirilib.

Verilən xəbərə görə, Britaniya rəsmiləri qızın vəziyyətinin yaxşılaşması barədə Rusiya tərəfinə də məlumat verib. Bununla əlaqədar olaraq rəsmi Moskva Londondan konsulluq nümayəndələri ilə polkovnikin qızı ilə görüşə imkan yaradılmasını tələb edib.

Rusiyanın xarici işlər naziri Sergey Lavrov məsələyə münasibət bildirərkən deyib: "Britaniya rəsmiləri bu gün bizə Yuliya Skripalın vəziyyətinin yaxşılaşması barədə məlumat verib. Biz bir daha bir Rusiya vətəndaşı kimi Yuliya ilə görüşün təşkil edilməsini tələb etdik. Ümid edirəm ki, Britaniya tərəfi Konsulluq Konvensiyası və Diplomatik Əlaqələr üzrə Vyana Konvensiyası üzrə öhdəliklərə riayət edəcək".

Qeyd edək ki, Britaniyaya casusluqda ittiham olunan sabiq Rusiya polkovniki Sergey Skripal və onun qızı Yuliya martın 4-də Solsberi şəhərində naməlum maddədən zəhərlənib. Rəsmi London sonradan həmin maddənin Rusiya istehsalı olduğunu deyərək bu sui-qəsddə Moskvanı günahlandırıb. Rusiya tərəfi isə bütün bu ittihamları qəti şəkildə rədd edib.

### ❑ SURİYADA ABŞ KOALİSİYASININ KONVOYU HÜCUMA MƏRUZ QALIB



Suriyada ABŞ-ın rəhbərliyindəki İŞİD əleyhinə olan koalisiyaya məxsus konvoylardan birinə kustar üsulla hazırlanmış partlayıcı ilə hücum edilib. Bu barədə "TRT" telekanalı "Anadolu" agentliyinə istinadən məlumat yayıb.

Koalisiya qüvvələrindən verilən açıqlamada bildirilir ki, 2 koalisiya əməkdaşı martın 29-da Suriyada kustar üsulla hazırlanmış bomba ilə öldürülüb, daha 5 əsgər isə yaralanıb.

Eyni zamanda, yaralıların müalicə olunması üçün bölgədən çıxarıldıqları bildirilib, həmçinin ölənlərin adları və rütbələri açıqlanmayıb.

Bununla yanaşı, xəbər verilir ki, hadisə ilə bağlı təhqiqat aparılır və hücumun dəqiq yeri barədə isə məlumat verilməyib.

Mövzu ilə əlaqəli olaraq "Anadolu" xəbər agentliyinin suallarını cavablandıran Koalisiya qüvvələrinin sözçüsü polkovnik Rayan Daylon həlak olan və yaralanan şəxslərin ailələrinə məlumat verilməyənədək hadisənin dəqiq yerinin bildirilməyəcəyini qeyd edib.

Eyni zamanda, Rayan Daylon ölən əsgərlərin ABŞ əsgəri olub-olmadığına dair suallara da məlum səbəbdən cavab verməkdən imtina edib.

Buna baxmayaraq, "Anadolu" xəbər agentliyinin yerli mənbələrdən əldə etdiyi məlumata görə, hücum məhz Menbiç yaxınlığında baş verib.

### ❑ ALİMLƏR BARMAQ ŞAQQILTISI SƏSİNİN TƏNLİYİNİ KƏŞF EDİB



Alimlərin diqqətini ən qıcıqlandırıcı insan vərdişlərindən biri sayılan barmaqların şaqqıldadılması çəkib. ABŞ və Fransa tədqiqatçılarının fikrincə, xarakterik şaqqıltı səsi riyazi tənliklərlə izah oluna bilər. "BBC" agentliyinin verdiyi məlumata görə, bu problem təxminən bir əsrdir ki, müzakirə olunmaqdadır.

Qeyd edilir ki, bu yaxınlarda Fransada təhsil alan Çandran Suja adlı tələbə və onun müəllimi politexnik universitetində mühazirələr oxuyan doktor Abdul Barakat ilə birlikdə barmaq şaqqıltısı probleminə dair silsilə tənliklər sistemi yaradıblar.

Hazırda Kaliforniyada Stanford Universitetinin aspirantı olan Çandran Suja açıqlamasında deyib: "Birinci tənlik şaqqıltı zamanı oynaqlarda təzyiqin dəyişməsini müəyyən edir. İkinci tənlik oynaqdaxili mayedəki qabarcıqların ölçüsünün təzyiqdən asılı olaraq dəyişməsini müəyyənləşdirir. Üçüncü tənlik isə hava qabarcığının ölçüsünün dəyişməsi ilə səsin çıxması arasında əlaqə yaradır".

Çandran Sujanın sözlərinə görə, bu tənliklər barmaq şaqqıltısının riyazi modelini təşkil edir.

Çandran Suja fikrini belə izah edib: "Barmaqlarımızı şaqqıldadanda oynaqlar dartılır. Bu zaman oynaqdaxili təzyiq düşür. Oynaqdaxili mayedə qabarcıqlar əmələ gəlir. Barmaqları şaqqıldadanda qabarcıqların ölçüsü kəskin sürətlə dəyişir və bu zaman şaqqıltı səsi çıxır". ■

*Azərbaycanlıların soyqırımı–100*

# Qərbi Azərbaycanda erməni vəhşiliyi, ardıcıl təcavüz və etnik təmizləmə

**Soyqırımı bütöv əhali qrupunun, etnosların irqi, milli, etnik, yaxud dini əlamətlərə görə tamamilə və ya qismən məhv edilməsi deməkdir. Tarix sübut edir ki, XIX əsrdən başlayaraq ermənilər Qafqazda və Türkiyə ərazisində işğalçılıq niyyətlərini həyata keçirmək üçün ardıcıl olaraq hərbi və ideoloji vasitələrdən yararlanmış, XX əsr boyu Azərbaycan və türk xalqlarına qarşı dəhşətli siyasətini həyata keçirmişlər.**

"Daşnaksütyun" partiyasını yaratmaqla mənfur niyyətlərinə start verən ermənilər Azərbaycan xalqına qarşı soyqırımı və deportasiya siyasətini planlaşdırılmış ssenari üzrə tarix boyu mərhələlərlə reallaşdırmışdır. XIX əsrin sonunda, XX əsrin əvvəllərində, xüsusən 1905-1907-ci illərdə Qərbi Azərbaycanda dinc azərbaycanlılara qarşı həyata keçirilən qətliamlar ətrafında çirkin və məkrli niyyətlərini reallaşdırmaq üçün türk qanına susayan erməni quldurları hansı vəhşilikləri, hansı terror hadisələrini törətməmişlər?

İki yüz ildən artıqdır ki, erməni millətçiləri xalqımıza qarşı ardıcıl təcavüz və etnik təmizləmə siyasiəti aparır. Bu siyasətin əsas məqsədi azərbaycanlıları öz əzəli torpaqlarından qovmaq, bu ərazilərdə uydurma "böyük Ermənistan" dövləti yaratmaqdır.

Tarixən bu gün Ermənistan adlandırılan ərazi azərbaycanlılara məxsus olub. Vurğulamaq lazımdır ki, XIX əsrin əvvəllərindən başlayaraq Qərbi Azərbaycanın Göyçə, Verdibasar, Ağbaba, Dərələyəz, Zəngibasar, Zəngəzur, İrəvan quberniyasına və digər bölgələrə İran və Türkiyədən minlərlə erməni ailəsi köçürülüb. İllər keçdikcə, ermənilər məskunlaşdıqları Azərbaycan torpaqlarında vəhşiliklər törətmiş, azərbaycanlılara qarşı xəyanət toru hazırlamış, bir çox terror hadisələri törətmişlər.

1918-ci ildə indiki Ermənistanın 575 min nəfər müsəlman əhalisi vardır. Tayqulaq, qəddar Andranikin qoşunu 1918-ci ilin yazında Vedi rayonunun Qədirli, Qaraxar, Birəli, Şahablı kəndlərinin dinc sakinlərini zor gücünə damlara doldurub min bir əziyyətlə yandırdılar. Andranikin qoşunu Naxçıvandan keçib, Zəngəzur zonasına, Sisyan, Qabran rayonlarında olan azərbaycanlı kəndləri dağıdıb əli silahsız dinc əhalini məhv etdi. Xüsusilə qadınlara, qocalara, körpə uşaqlara ağır işgəncələr verildi. Sisyan rayonunun Urud, Darbas, Ağudi, Vacuru, Şükür, Məlikli, Şəki və digər kəndlərinin sakinləri damlara doldurulub yandırıldı, analoqu olmayan vəhşiliklər törədildi, Sanki dağ-daş lərzəyə gəldi. Həmin günlərdə Qafan rayonunun kəndinin əhalisinin başına gətirilən faciələr barədə Gəncə qubernatoruna 11 dekabr 1918-ci il tarixdə 300 nömrəli teleqramla xəbər verilmişdi.

**Teleqramda deyilirdi: "Zəngəzur qəzası rəisinin məlumatlarına görə, dekabrın 19-da Andranikin dəstəsi yerli ermənilərlə birləşərək Kığı dərəsində müsəlmanları qırırlar".**

Cəbrayıl-Zəngəzur zonasının qəza rəisi Namazəliyevin teleqramında isə göstərilirdi ki, dekabrın 10-da ingilis, fransız, ermənilər müsəlman kəndi olan Şabadinə və bir neçə başqa müsəlman kəndlərinə hücum etdilər. Bir neçə kəndin kişilərini hiylə ilə, barışıq adı ilə Oxçu kəndinə çağırıb böyük bir dama doldurub, qapını qıfıllayıb od vurdular.

Andranikin daşnak, qaniçən quldur dəstəsi 1918-ci ildə Zəngəzur zonasında yüzdən çox azərbaycanlı kəndini talayıb, qənimət ələ keçirib və amansızlıqla əhalini yandırmışlar.

Özünü çox məharətlə bolşevik siması altında gizlətməyi bacaran, əslində "Daşnak" partiyasının ən fəal üzvlərindən olan xəyanətkar Stepan Şaumyanın göstərişi ilə Dro Qanayanın müsəlman qanına susayan terrorçu dəstəsi İrəvanətrafı kəndlərə — Axta, Gəmi rayonlarına, polkovnik Silikyanın diviziyası Bayazit, Qaranlıq, Basarkeçər və Qaraqoyun dərəsi zonalarında hücuma keçdilər. Xaçpərəst daşnak quldurlar nələr etmədilər? Dronun dəstəsi Axta rayonunun Təkərli, Dərəçiçək, Gümüş və başqa bir neçə kəndin günahsız, dinc əhalisini vəhşiliklə qətlə yetirdilər. Daha sonra neçə-neçə şərab tuluqları boşaldıldı...

Saqqallı ermən quldurları Kənəkir rayonunun indiki İrəvan şəhərini və İrəvanətrafı rayonları su ilə təmin edən Qırxbulaq zonasında olan 40 kəndin azərbaycanlı əhalisini tamam məhv etmiş, bir nəfər olsun belə, salamat qalan olmamışdır.

1918-ci ildə İrəvandakı qırğın zamanı şəhərin müsəlman əhalisi qaçıb Göy məscidə doluşdular. Azərbaycanlılardan ibarət dəstələr silahlı qaydada məscidin hər tərəfini müdafiə etdilər. Qəddar, dinsiz, imansız, quduz itə dönmüş vəhşi ermənilər Uluxanlı kəndinin adamlarını Azərbaycana gedən qatarın 4 vaqonuna doldurmuş, elə vaqonda da od vurub yandırmışdılar.

Dərələyəz mahalı Basarkeçərə, Göyçə gölünə, digər tərəfdən Dədə Şəmşirin yurdu olan Kəlbəcərə yaxın idi. Atlas geyimli dağlar Dərələyəzlilərin qədim yaşayış məskəni idi. İgid oğullar heç vaxt erməni dığalarının qarşısında əyilməzdilər. Daşnaklara sübut edirdilər ki, biz Koroğlu nəslindənik, yeri gələrsə, hər an misri qılınc təpənizə enə bilər. 1918-ci ilin Novruz bayramı günlərində azğınlaşmış, qəddar erməni daşnakları Dərələyəzin Paşalı, Kotanlı, Herher, Bulaqlar, Çaykənd, Terp, Köşbək, Sofulu kəndlərində, Yeğeqnadzor rayonunun Həsənkənd, Sallı Qışlaq, Nors,Ələyəz, Qovşu, Ayısəsi, Qabaxlı, Gülüdüz, Nəbilər, Alxan, Təkəsli kəndlərində də olmuş, Dronun qaniçən dəstəsi müsəlman yaşayan ərazilərdə misli görünməmiş müsibətlər törətmiş, qıjıltılı dağ çayları müsəlman qanına boyanmışdır.

Ermənilərin azərbaycanlılara qarşı törətdikəri vəhşilikləri sadalamaqla qurtarmaq olmaz. Ermənilər Qarsda 17 azərbaycanlını Başgedən stansiyasında qatarın böyründən asıb Gömrüyə göndərirlər. Mənzil başına çatanda azərbaycanlıların ancaq dirsəkləri qalmışdı. Qadınları çılpaqlayıb, dama doldurub yandırırdılar. Bayazitin Ağzıbir, Ağqala, Bığlı kənd camaatını qışın boranlı-çovğunlu günlərində çılpaq halda buzlu Göyçə gölünə doldururlar erməni cəlladları.

1918-ci ilin Novruz bayramı günlərində, Novruz tonqalları yananda polkovnik Silikyanın terrorçu, quldur dəstəsi Stepan Şaumyanın göndərişi ilə Göyçənin Basarkeçər rayonunun ərazisinə daxil olur. Ermənilər igidlər oylağı olan Şişqaya kəndinə daxil olarkən azərbaycanlıların müqaviməti ilə üzləşirlər.

Ermənilər hiylə işlədərək Şişqaya kəndinin sakinlərini barışıq adı ilə böyük mal tövləsinə toplayırlar. Sonra isə qapıları qıfılanların və tövləyə od vurulur. Tək-tək insanlar bu işgəncədən sağ qalır.

Daşnak quldurlar Kiçik Məzrə və digər kəndlərdə də yerli əhaliyə divan tutur, diri-diri insanları su quyularına doldurur, musiqi alətlərini telli sazı sındıraraq tonqallara atırdılar...

1918-ci ildə Silikyanın quldur dəstəsi 22 nəfərlə Zod kəndinə daxil olur. Səməd ağaya təklif olunur ki, 10 gün müddətində erməni ordusuna xeyli miqdarda taxıl, ot verilməlidir. Səməd ağa, Məşədi İsa, el ağsaqqallı Nərimanlı Qlava Balı bir sıra dil bilən adamlar bu məsələni tələm-tələsik müzakirə edirlər. Belə qərara alınır ki, bu qədər taxıl vermək mümkün deyil, ikincisi taxıl verməyi erməni daşnaklarını yaxına buraxan kimi onlar hücuma keçib camaatı qıracaqlar. Ona görə də çıxış yolu təkcə budur ki, Simikovun terrorçu dəstəsini qırmaq lazımdır. Elə də edirlər. Səməd Ağa düşmən ordusuna süfrə açır, şərab daşnakları məst edir. Ermənilər yeyib dəmləndikləri bir məqamda açıq pəncərələrdən aramsız atəş səsləri eşidilir, ermənilər Zodda tələyə düşür, qaniçən dəstə tamam məhv olur, polkovnik Silikyan "ter-astvas" deyib ölüm ayağında eybəcər səs çıxarır və gözlərini əbədi yumur.

Ermənilər bu hadisəyə kimi Çamırlı, Mollalı, Yuxarı Zağalı, Qızılvəng, Kərkibat, Qanlı kəndlərində dinc əhalini qırmış, qadın, qoca, cavanları işgəncə ilə öldürmüş, əmlaklarını talan etmişlər.

1918-ci ildə Zod kəndində Silikovun dəstəsinin qırılması daşnaklar üçün böyük zərbə oldur. 1919-cu ildə ermənilər təzədən Göyçə mahalına hücuma keçdilər. Basarkeçərin azərbaycanlı əhalisi erməni quldurlarından yaxa qurtarmaq üçün böyük itki verərək Gədəbəy və Kəlbəcər istiqamətlərində qarlı yollar aşaraq Azərbaycana pənah gətirdilər.

Kəlbəcər yollarında neçə-neçə günahsız insanlar boran-çovğuna düşdü, dərələrə yuvarlandı. El arasında həmin yerlər "Sümüklü dərə" adlanırdı.

1918-ci il dekabrın 28-də Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə daxil olmuş teleqramda deyilirdi ki, 25 minlik erməni qüvvəsi İrəvandan gələrək 8 müsəlman kəndini mühasirəyə almışdır. 200 nəfərdən çox azərbaycanlı Araz çayını küçərək həlak olmuşdur. Göyçə mahalının Qarayman kənd sakinləri Allahverdi Oruc oğlu və Rüstəm Məşədi Hüseyn oğlu Gəncəyə gəlmiş və göyçəlilərin başına gətirilən müsibətləri qubernatora belə danışmışlar: **"Filimov və Nişanovun başçılıq etdiyi terrorçu dəstə gecə Qızılvəng Subatan və Zağalı kəndlərini mühasirəyə almış, kişiləri pristavın yanına çağırmaq bəhanəsi ilə tövləyə salmış, özləri isə kəndləri qarət etmişlər. Camırlı kəndində 4 kişi və 6 qadın vəhişəcəsinə öldürülmüşdür. Şərab kəndinin bütün kişiləri yandırılmış və körpə uşaqla təndirə tökülmüşlər".**

Ümumiyyətlə, 1918-1919-cu illərdə Daşnaklar Qərbi Azərbaycanda, qədim Oğuz ellərində ağlasığılmaz talanlar, amansız qətllər törətmiş, bir-birinin ardınca terror hadisələri baş vermişdir.

Azərbaycan tarixində ilk dəfə olaraq ulu öndər Heydər Əliyevin erməni məkrini tarixi faktların dili ilə ifşa etdiyi fərmanda ermənilərin azərbaycanlılara qarşı təcavüzünün tarixi köklərinə də toxunulur, onların mərhələlərlə törətdikləri soyqırımı və terror siyasətinin mahiyyəti açılır, ölkəmizin hansı tarixi hadisələrlə üzləşdiyi yeni nəsillərə bildirilir, xalqımızın qarşılaşdığı müsibətlərin siyasi və çağdaş aspektlərinə nəzər salınır.

Hər il martın 31-i Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd etməklə biz bir daha tarixi keçmişə qayıdır ermənilər tərəfindən xalqımıza qarşı açıq şəkildə həyata keçirilən miqyaslı aksiyaları ürək ağrısı ilə yad edirik.

**Qədir ASLAN,**
**"Respublika".**

# "PAŞA Həyat Sığorta" ASC-nin 2017-ci il üçün maliyyə hesabatı

SIĞORTAÇININ MÜHASİBAT BALANSI (illik)

Sığortaçının adı: *" PAŞA Həyat Sığorta " ASC*

Hesabat dövrü : 31.12.2017 tarixinə

*manatla*

| AKTİVLƏR | Hesabat dövrünün əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| I.UZUNMÜDDƏTLİ AKTİVLƏR | | |
| **Torpaq, tikili və avadanlıqlar** | 779 588,14 | 639 745,54 |
| **Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması** | | |
| **Daşınmaz əmlaka investisiyalar** | 417 655,89 | 417 655,89 |
| **Qeyri-maddi aktivlər** | 85 724,29 | 138 840,06 |
| **Təxirə salınmış vergi aktivləri** | | |
| **Uzunmüddətli debitor borcları** | | |
| **Uzunmüddətli maliyyə aktivləri:** | **10 182 674,34** | **32 586 905,00** |
| dövlət qiymətli kağızları | | |
| qeyri-dövlət qiymətli kağızları | 10 182 674,34 | 32 586 905,00 |
| sair maliyyə aktivləri | | |
| **İştrak payı metodu ilə uçota alınmış investisiyalar** | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair aktivlər** | 100 000,00 | 100 000,00 |
| *Cəmi uzunmüddətli aktivlər* | **11 565 642,66** | **33 883 146,49** |
| II . QISAMÜDDƏTLİ AKTİVLƏR | | |
| **Ehtiyatlar** | | |
| **Debitor borcları:** | **19 617 992,04** | **20 947 902,71** |
| birbaşa sığorta üzrə | 5 488 975,62 | 4 808 836,88 |
| **təkrarsığorta əməliyyatları üzrə :** | **1 766 121,07** | **182,47** |
| - təkrarsığortaçı üzrə | 1 766 121,07 | 182,47 |
| - təkrarsığortalı üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| büdcə üzrə | | 1 831 747,47 |
| iddia tələbləri üzrə | | |
| işçi heyəti üzrə | 0 | 0 |
| sığortalılara verilən borclar üzrə | | |
| sair debitorlar | 12 362 895,35 | 14 307 135,89 |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | **117 003 542,57** | **104 904 703,41** |
| kassa | 5 630,64 | 283,13 |
| hesablaşma hesabı | 1 617 361,46 | 3 071 368,75 |
| valyuta hesabı | 9 486 745,91 | 11 399 452,12 |
| depozit hesablar | 105 859 781,16 | 90 403 847,53 |
| sair pul vəsaitləri | 34 023,40 | 29 751,88 |
| **Qısamüddətli maliyyə aktivləri:** | **8 125 735,16** | **41 748 091,74** |
| dövlət qiymətli kağızları | 8 125 735,16 | 41 748 091,74 |
| qeyri-dövlət qiymətli kağızları | 0 | 0 |
| sair maliyyə aktivləri | 0 | 0 |
| **Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:** | **2 663 712,63** | **1 392 103,95** |
| həyat sığortası sahəsi üzrə | 2 663 712,63 | 1 392 103,95 |
| qeyri-həyat sığortası sahəsi üzrə | | |
| **Sair qısamüddətli aktivlər:** | **431 234,65** | **444 623,01** |
| gələcək hesabat dövrlərinin xərcləri | 431 234,65 | 444 623,01 |
| verilmiş avanslar | | |
| təhtəl hesablar | | |
| **Sair aktivlər** | 5 214 867,90 | 4 566 222,73 |
| *Cəmi qısamüddətli aktivlər* | 153 057 084,95 | 174 003 647,55 |
| **CƏMİ AKTİVLƏR** | **164 622 727,61** | **207 886 794,04** |

| KAPİTAL VƏ ÖHDƏLİKLƏR | Hesabat dövrünün əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| I. KAPİTAL | | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | 40 250 000,00 | 40 250 000,00 |
| **Emissiya gəliri** | | |
| **Geri alınmış kapital (səhmlər)** | | |
| **Kapital ehtiyatları:** | 0 | 0 |
| yenidən qiymətləndirilmə üzrə ehtiyat | | |
| digər kapital ehtiyatları | | |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | **17 829 252,54** | **17 200 308,60** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 17 766 381,08 | 13 071 056,06 |
| Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər | | |
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 10 803 982,57 | 17 829 252,54 |
| Elan edilmiş dividendlər | - 10 741 111,11 | - 13 700 000,00 |
| *Cəmi kapital* | **58 079 252,54** | **57 450 308,60** |
| II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR | | |
| **Sığorta ehtiyatları:** | **101 899 450,27** | **144 479 677,44** |
| Həyat sığortası sahəsi üzrə : | 101 899 450,27 | 144 479 677,44 |
| Qeyri-həyat sığortası sahəsi üzrə: | | |
| **Qarşısıalınma tədbirləri fondu** | | |
| **Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| **Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| **Taxirəsalınmış vergi öhdəlikləri** | | |
| **Kreditor borcları :** | 0 | 0 |
| əməyin ödənilməsi üzrə | | |
| büdcə üzrə | | |
| sosial sığorta və təminat üzrə | | |
| digər məcburi ödənişlər üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| sair kreditorlar | | |
| **Sair uzunmüddətli öhdəliklər:** | 0 | 0 |
| gələcək hesabat dövrünün gəlirləri | | |
| alınmış avanslar | | |
| **Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:** | **728 821,65** | **747 443,17** |
| təkrarsığortaçı üzrə | | |
| təkrarsığortalı üzrə | 728 821,65 | 747 443,17 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair öhdəliklər** | | |
| *Cəmi uzunmüddətli öhdəliklər* | 102 628 271,92 | 145 227 120,61 |
| III . QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR | | |
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | 0 | 0 |
| **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | 0 | 0 |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | 0 | 0 |
| **Kreditor borcları:** | **3 569 850,76** | **4 199 239,52** |
| əməyin ödənilməsi üzrə | 3 086,64 | 1 857,55 |
| büdcə üzrə | 1 976 140,02 | 0 |
| sosial sığorta və təminat üzrə | 63 784,74 | 0 |
| digər məcburi ödənişlər üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| sair kreditorlar | 1 526 839,36 | 4 197 381,97 |
| **Sair qısamüddətli öhdəliklər:** | **274 469,24** | **1 010 125,31** |
| gələcək hesabat dövrünün gəlirləri | 274 469,24 | 1 010 125,31 |
| alınmış avanslar | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair öhdəliklər** | **70 883,15** | 0 |
| *Cəmi qısamüddətli öhdəliklər* | 3 915 203,15 | 5 209 364,83 |
| *CƏMİ ÖHDƏLİKLƏR* | 106 543 475,07 | 150 436 485,44 |
| CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR | **164 622 727,61** | **207 886 794,04** |
| Qeyd : Ödənilməsinə zəmanət verilmiş məbləğlərin cəmi* | | |

* Bu sətrlər üzrə məlumatlar balansa daxil edilmir.

SIĞORTAÇININ MƏNFƏƏT və ZƏRƏRİ HAQQINDA HESABAT (illik)

Sığortaçının adı: *" PAŞA Həyat Sığorta " ASC*

Hesabat dövrü : 31.12.2017 tarixinə

*ilin əvvəlindən artan yekunla*

*manatla*

| Gəlirlər | Məbləğ |
|---|---|
| **Əsas əməliyyat gəliri:** | **153 627 098,34** |
| birbaşa sığorta üzrə sığorta haqları | 152 697 479,61 |
| təkrarsığorta üzrə təkrarsığorta haqları | 4 503,80 |
| sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | 801 117,14 |
| təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə | 123 997,79 |
| **Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi)** | - **43 851 835,85** |
| **İnvestisiya gəlirləri üzrə** | **13 881 412,21** |
| **Subroqasiya gəlirləri** | |
| **Sair gəlirlər** | **494 616,61** |
| **CƏMİ GƏLİRLƏR** | **124 151 291,31** |
| **Xərclər** | |
| **Əsas əməliyyat xərcləri:** | **59 728 566,73** |
| sığorta ödənişləri və sığorta məbləğləri üzrə | 58 004 591,98 |
| qaytarılan sığorta haqları üzrə | 561 416,54 |
| tənzimləmə xərcləri | |
| təkrarsığortaya verilmiş sığorta haqları üzrə | 1 162 558,21 |
| qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə | |
| sığorta fəaliyyəti üzrə sair xərclər | |
| **İşlərin aparılması xərcləri** | **39 423 780,75** |
| **Sair xərclər** | **8 066 860,75** |
| **CƏMİ XƏRCLƏR** | **107 219 208,23** |
| **Maliyyə mənfəəti (zərəri)** | **16 932 083,08** |
| **Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi** | |
| **Vergiqoyulmadan əvvəl mənfəət (zərər)** | 16 932 083,08 |
| **Mənfəət vergisi** | 3 861 027,02 |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **13 071 056,06** |

"PAŞA Həyat Sığorta" ASC

PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

Məlumatlar min Azərbaycan manatı ilə təqdim edilir.

**31 dekabr 2017-ci il tarixdə başa çatmış il üzrə**

| | *2017* | *2016* |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Yığılmış sığorta haqları | 153,584 | 76,135 |
| Ödənilmiş təkrarsığorta haqları | -606 | -632 |
| Sığorta ödənişləri | -58,005 | -46,167 |
| Alınmış təkrarsığorta ödənişləri | 2,152 | – |
| Ödənilmiş komissiya xərcləri | -24,853 | -5,765 |
| İşçilərlə bağlı ödənilmiş xərclər | -5,805 | -6,593 |
| Ödənilmiş digər əməliyyat və inzibati xərclər | -6,078 | -3,973 |
| **Mənfəət vergisindən əvvəl əməliyyat fəaliyyətindən əldə edilmiş xalis pul vəsaitləri** | **60,389** | **13,005** |
| Ödənilmiş mənfəət vergisi | -5,787 | -3,068 |
| **Əməliyyat fəaliyyətindən əldə edilmiş xalis pul vəsaitləri** | **54,602** | **9,937** |
| **İnvestisiya fəaliyyətindən əldə edilmiş pul vəsaitləri** | | |
| Kredit təşkilatında yerləşdirilmiş məbləğlər | -28,732 | -32,774 |
| Kredit təşkilatları tərəfindən ödənilmiş məbləğlər | 22,278 | 47,968 |
| Satış üçün mövcud olan investisiya qiymətli kağızlarının alınması | -72,409 | -12,508 |
| İnvestisiya qiymətli kağızlarının satılması və geri alınmasından daxilolmalar | 9,98 | 8,423 |
| Əks "repo" razılaşmaları üzrə pul vəsaitlərinin yatırılması | -11,879 | – |
| Əks "repo" razılaşmalarının ödənilməsindən daxilolmalar | 864 | – |
| Alınmış investisiya gəliri | 16,277 | 6,989 |
| Torpaq satışından daxilolmalar | 3,2 | 200 |
| Əmlak və avadanlıqların alınması | -276 | -384 |
| Qeyri-maddi aktivlərin alınması | -31 | -27 |
| Zəmanətlərdən daxilolmalar | 205 | – |
| Əmlakın və avadanlığın satışından daxilolmalar | 21 | 48 |
| **İnvestisiya fəaliyyəti üzrə (istifadə edilmiş)/ əldə edilmiş xalis pul vəsaitləri** | **-60,502** | **17,935** |
| **Maliyyələşdirmə fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Dividendlərin ödənilməsi | -13,7 | -10,843 |
| **Maliyyələşdirmə fəaliyyətində istifadə edilmiş xalis pul vəsaitləri** | **-13,7** | **-10,843** |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərinə valyuta məzənnələrinin dəyişməsinin təsiri | -2,329 | 6,244 |
| Kredit təşkilatlarından alınacaq məbləğlərin pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərinə yenidən təsnif edilməsi | 6,688 | – |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis (azalma)/artma** | **-15,241** | **23,273** |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri, ilin əvvəlinə | **69,789** | **46,516** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri, ilin sonuna** | **54,548** | **69,789** |

"PAŞA Həyat Sığorta" ASC

KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT

**31 dekabr 2017-ci il tarixdə başa çatmış il üzrə** *Azərbaycan Manatı ilə*

| | Qeyd | Nizamnamə Kapitalı | Bölüşdürülməmiş mənfəət(zərər) | Cəmi Kapital |
|---|---|---|---|---|
| **31 dekabr 2015-ci il tarixə qalıq** | | **40.250.000** | **10.803.982,57** | **51.053.982,57** |
| 2016-cı il üzrə xalis mənfəət | 22 | | 17766381,08 | 17766381,08 |
| Elan edilmiş dividend | | | (10741111,11) | (10741111,11) |
| Mənfəətdən istifadə | | | | |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | |
| **31 dekabr 2016-cı il tarixə qalıq** | | **40.250.000** | **17.829.252,54** | **58.079.252,54** |
| 2017-ci il üzrə xalis mənfəət | 22 | | 13071056,06 | 13071056,06 |
| Elan edilmiş dividend | | | (13700000,00) | (13700000,00) |
| Mənfəətdən istifadə | | | | |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | |
| **31 dekabr 2017-ci il tarixə qalıq** | | **40.250.000** | **17.200.308,6** | **57.450.308,60** |

## MÜSTƏQİL AUDİTORUN HESABATI

**"PAŞA Həyat Sığorta" Açıq Səhmdar Cəmiyyətinin Rəhbərliyinə**

**Rəy**

Biz **"PAŞA Həyat Sığorta" ASC-nin** 31 dekabr 2017-ci il tarixinə balans, mənfəət və zərər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında maliyyə hesabatlarının auditini apardıq.

Hesab edirik ki, ASC-nin qoşma maliyyə hesabatları bütün əhəmiyyətli aspektlərdə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq hazırlanmışdır.

**Rəy üçün əsaslar**

Biz auditimizi Beynəlxalq audit standartlarına (ISA) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının apardığımız auditə aid olan etik normalara uyğun olaraq ASC-dən asılı deyilik və biz digər məsuliyyətlərimizi bu tələblərə uyğun yerinə yetirməmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə və vergi hesabatlarının Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq hazırlanmasına və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə və vergi hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə və vergi hesabatlarını hazırladıqda, rəhbərlik ASC-ni ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik ASC-nin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər ASC-nin maliyyə və vergi hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə və vergi hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar şəkkaklıq nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə və vergi hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.
- ASC-nin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük.
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk.
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə ediməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında ASC-nin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər ASC-nin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

"Caspian Consulting and Partners" MMC

Ünvan: Bakı ş. Nizami küç. 1/3

Direktor/Auditor: Elnurə Abdinova

Tarix: 19.03.2018

# Seçkilərə hazırlıq başa çatıb

**Şirvan şəhərində 46 saylı dairə seçki komissiyanın sədri Taleh Ağayevdən öyrənirik ki, dairənin əhatə etdiyi 34 seçki məntəqəsi 11 apreldə keçiriləcək Prezident seçkilərinə tam hazırdır.**

Şəhərdə 41.845 nəfər səsvermə hüququna malik vətəndaş seçkilərdə iştirak edəcək. Hazırlıq işləri yüksək səviyyədə başa çatıb. Məntəqələr lazımi avadanlıqlarla təmin olunub. Seçici siyahıları lövhələrdən asılıb, məntəqə üzvləri ayrı-ayrı məhəllələrdə, yaşayış yerlərində keçirilən görüşlərdə vətəndaşları maraqlandıran suallara aydınlıq gətiriblər.

Sədr daha sonra əlavə edir ki, istənilən məntəqəyə gedib hazırlıq vəziyyəti ilə tanış ola bilərsiniz.

Yolumuzu Şirvanda ən qocaman təhsil ocağı olan 1 saylı orta məktəbdə yerləşən 8 saylı məntəqədən salırıq. Məntəqədəki səliqə-sahman ilk baxışdan razılıq hissi yaradır. Həmsöhbətimiz, məntəqənin sədri İlyas Mirzəyev deyir:

- Səsvermə hüququna malik 1255 nəfər seçici bizim məntəqədə öz vətəndaşlıq borcunu yerinə yetirəcək. Bütün seçicilərin adı-ünvanı gördüyünüz lövhələrdə öz əksini tapıb. Məntəqə üzvləri əhatə etdiyimiz İ.Qayıbov, Ş.Şükürov, G.Şıxbala oğlu, S.Ə.Şirvani küçələrində əhali ilə görüşlər zamanı onları maraqlandıran suallara cavab veriblər.

Məntəqənin həyətində, görməli yerdə prezidentliyə namizədlərin şəkli asılan lövhə yerləşir. Üzvlərin partiya mənsubiyyəti də qənaətbəxşdir. 6 nəfər üzv arasında Yeni Azərbaycan, Ana Vətən, Vətəndaş Həmrəyliyi Partiyasını təmsil edən nümayəndələr var, 2 nəfər bitərəfdir. 41 nəfər gənc ilk dəfə seçkilərdə iştirak edəcək. Ən qocaman seçici - 95 yaşlı Balacaxanım Mirzəyeva 11 apreli səbirsizliklə gözləyir. Sağlamlığında problem olan 8 nəfər seçicinin səs verməsinə yaşadıqları mənzillərdə şərait yaradacağıq.

**Tofiq HÜSEYN,**
**"Respublika".**

## Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti avtomobillərə GPS sisteminin alınaraq quraşdırılması işlərinin satınalınması məqsədilə

## AÇIQ TENDER ELAN EDİR

| Tender 1 (bir) lot üzrə keçirilir: | | İştirak haqqı (manatla) |
|---|---|---|
| Lot 1 | Avtomobillərə GPS sisteminin alınaraq quraşdırılması işləri | 250 |

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Zərifə Əliyeva küçəsi-30 ünvanında yerləşən Dövlət Sərhəd Xidməti Aparatının inzibati binasından ala bilərlər.

**Hesab:** Dövlət Xəzinədarlığı Agentliyi kod: 210005; VÖEN 1401555071; M/h: AZ41NABZ01360100000000003944; S.W.İ.F.T BİK: CTREAZ22; Dövlət Sərhəd Xidməti VÖEN 1700360581; H/h: AZ19CTRE00000000000002388501; XHK 142319 2388501(2310) fond 3

İştirak haqqı heç bir halda geri qaytarılmır.

**Əlaqə telefonu: (Tel: (012) 498-01-36)**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*- tender təklifi dəyərinin 2 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*

*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından və Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondundan arayış;*

*- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*- iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Tender təklifləri Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır *(xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).*

Tender proseduru Dövlət satınalmaları haqqında Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri *(tender təklifi, bank zəmanəti və iş qrafiki istisna olmaqla)* 02 may 2018-ci il saat 17:00-dək, tender təklifi, bank zəmanəti və iş qrafiki isə möhürlənmiş ikiqat zərfdə 15 may 2018-ci il tarixə saat 16:00-dək Dövlət Sərhəd Xidmətinin Tender Komissiyasına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender təkliflərində sərfəli qiymət və yüksək keyfiyyətlə qiymətləndirilən meyarlara üstünlük veriləcəkdir.

İddiaçıların təklifləri 16 may 2018-ci il tarixdə, saat 15:00-da Bakı şəhəri, Zərifə Əliyeva küçəsi-30 ünvanında yerləşən Dövlət Sərhəd Xidməti Aparatının inzibati binasında açılacaqdır.

İddiaçı və ya onun notarial qaydada təsdiqlənmiş sənədlə müvəkkil etdiyi şəxslər tender prosedurunun açılışında iştirak edə bilərlər.

**Dövlət Sərhəd Xidmətinin**
**Tender Komissiyası.**

"Azərişıq" ASC 2018-ci ildə 110/35/6 kV-luq "Beyləqan", "Balakən" və "Ağstafa" yarımstansiyalarının tikintisi və avadanlıqlarının quraşdırılması üzrə işlərin satınalınması məqsədilə açıq tender elan edir

Tender 3 (üç) LOT üzrə keçirilir:

LOT-1. 110/35/10 kV-luq "Beyləqan" yarımstansiyasının tikintisi və avadanlıqların quraşdırılması üzrə işlərin satınalınması - 400 manat

LOT-2. 110/35/10 kV-luq "Balakən" yarımstansiyasının tikintisi və avadanlıqların quraşdırılması üzrə işlərin satınalınması - 400 manat

LOT-3. 110/35/10 kV-luq "Ağstafa" yarımstansiyasının tikintisi və avadanlıqların quraşdırılması üzrə işlərin satınalınması - 400 manat

"Azərişıq" ASC
VÖEN: 9900069391
Hesab No:
AZ83AİİB33020029441802068118
Benefisiarın Bankı: "Kapital Bank"ın Gənclik filialı
Kod: 200189
VÖEN: 9900003611
Müxbir hesab No:
AZ37NABZ01350100000000001944
SWİFT Code: AİİBAZ2X

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lotlar üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ələsgər Qayıbov küç. 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Əlaqələndirici şəxs - Aşəd Ağayev (telefon: 440-39-93 daxili (22-83))

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

-tenderdə iştirak etmək üçün yazılı müraciət;

-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;

-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);

-tender təklifi dəyərinin 2%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).

-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;

-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;

-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;

-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

-müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 3 may 2018-ci il saat 16:00-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 15 may 2018-ci il saat 16-00-a qədər Bakı şəhəri, Ələsgər Qayıbov küç. 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 16 may 2018-ci il tarixində saat 16-00-da Bakı şəhəri, Ələsgər Qayıbov küç. 8 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştitrak edə bilərlər.

"AZƏRİŞIQ" ASC-nin
TENDER KOMİSSİYASI.

# Füzuli: 2100 hektarda çiyid səpiləcək

Cəbhə bölgəsində baharın nəfəsi daha yaxından duyulur, ağaclar çiçək açıb, bənövşə kol dibindən boylanır, quşların cəh-cəhi ətrafa yayılır. Təbiət yaşıl donunu geyinib. Axşam düşənə kimi tarlalardan traktorların səsi kəsilmir, əkinçilər yaz-tarla işlərinə başlayıblar. Bu ilin bol məhsulu üçün bütün qüvvələr səfərbər edilib, qarşıda duran vəzifələri kənd adamları daha dərindən duyurlar.

Bu münasibətlə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə martın 26-da Bərdə rayonunda pambıqçılığın inkişaf etdirilməsinə dair keçirilmiş respublika müşavirəsindən irəli gələn vəzifələr müzakirə edilib.

Rayonun aidiyyəti idarə və təşkilatlarının nümayəndələrinin, pambıqçılıqla məşğul olan fermerlərin, torpaq mülkiyyətçilərinin, kənd inzibati ərazi nümayəndələri və bələdiyyə sədrlərinin iştirak etdiyi toplantıda rayon icra hakimiyyətinin başçısı Alı Alıyev çıxış edərək, pambıqçılığın inkişafı ilə bağlı həyata keçirilən tədbirlərdən, çiyid səpininə hazırlıqla əlaqədar görülən işlərdən danışıb.

Bildirilib ki, bu il Füzuli rayonunda 2100 hektarda çiyid səpini nəzərdə tutulur. Pambıq əkinlərinin 1412 hektarı "Füzuli Kənd Təsərrüfatı" MMC, 590 hektarı "Azərpambıq" MMC ilə müqavilə əsasında becəriləcək. Artıq çiyid səpiləcək sahələrdə şum işi başa çatdırılıb, sahələr arat edilib, mala işi aparılıb. Yaxın günlərdə çiyid səpininə başlanılacaq.

Prezident Administrasiyasının məsul əməkdaşı Əflatun Rufiyev çıxış edərək Prezident İlham Əliyevin sədrliyi ilə martın 26-da Bərdə rayonunda pambıqçılığın inkişaf etdirilməsinə dair keçirilmiş respublika müşavirəsindən irəli gələn vəzifələr barədə danışıb. Bildirib ki, 2017-ci ildə respublika üzrə 207 min ton pambıq istehsal olunub. Qeyd edilib ki, Prezident İlham Əliyevin yerlərdə kənd təsərrüfatının inkişafı, yerli istehsalın artırılması, əhalinin məşğulluğunun yüksəldilməsi ilə bağlı tapşırıqlarının biri də bölgələrdə pambıqçılığın inkişaf etdirilməsidir.

Yığıncaqda pambıq emalı müəssisələrinin rəhbərlərinin, fermerlərin fikir və təklifləri dinlənilib.

**Salman ALIOĞLU,**
**"Respublika".**

